Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

2

APREL
2019-cu il

№ 57 (3955)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# ƏLİYEV-PAŞİNYAN VYANA GÖRÜŞÜNÜN NƏTİCƏLƏRİNİ DÜNYA DƏSTƏKLƏDİ, ERMƏNİSTANIN ÖZÜNDƏ «YAS QURULUB»...

səh. 3



səh. 9

## Paşinyan rastına çıxan jurnalistə görüşün normal keçdiyini deyərək Bristol otelini birinci tərk edib...



İŞİD Rusiya və Ermənistan arasında yeni nifaq mənbəyinə çevrildi - İŞİD Ermənistanı təsadüfən seçmir...

səh. 8



Sumqayıtlı Vüqar Səda «Kazbek»ə şey basıb sonadək fırrana" bilmədi - dəyərlərimizə meydan oxuyanları bu dəfə də Ramil Usubov zərərsizləşdirdi

səh. 12

Tanınmış şərurlular İsfəndiyar Axundovu «Şərurlu» adından imtina etməyə çağırdılar

səh. 6

Ermənistanın Azərbaycan-İsrail hərbi əməkdaşlığını zəiflətmək səyləri tam iflasa uğradı

səh. 5

Erməni lobbisi Qarabağ separatizminə yüz milyon yardım üçün yalnız 35 konqresmenin imzasını ala bildi...

səh. 5

Ermənistanın ali təhsilində fəlakət rəqəmləri - "məxməri inqilab"ın əsas qüvvəsi olan gənclər də korrupsiyanın qabağını ala bilmir

səh. 7

Müasir erməni caniləri ilə bağlı ədəbiyyatımızda böyük problem - real cinayətkarlar niyə öz adları ilə göstərilmir...

səh. 10

Azərbaycanlıların ermənilər tərəfindən soyqırımına aid hələ bir bədii film çəkilməyib...

səh. 11

Vahid məktəbli forması rəsmiləşir - Məktəblərin və valideynlərin canı hansı problemlərdən qurtardı...

səh. 13

Bakı villasında çılpaq qızları oynadan əxlaqsız videonu saxta "aypi" xatirinə bol-bol tirajlayan saytlar MŞ-nın hədəfində...

səh. 12

Bakının yeraltı keçidlərində eskalatorlar niyə işləmir...

səh. 6

səh. 3

Vaqif Dərgahlı Ermənistan müdafiə naziri Tonoyanın ABŞ səfərinin "ləzzətini" burnundan tökdü...



səh. 4

Ermənistan hakimiyyətində Qarabağ ixtilafı, ya oyun - Paşinyan sülhdən, nazir yeni Azərbaycan torpaqlarının işğalından danışır...



səh. 8

Türkiyə bələdiyyələri - yeni gərginliklər, ya gərginliyə son verən seçki - böyük şəhərlərdə məğlubiyyətin səbəbləri...



səh. 7

"Donqili" spirtli içkinin Təbrizdə törətdiyi humanitar fəlakət - İranda baş verənlərin mümkün kökləri...



səh. 13

Orta məktəblərdə maraqlı və sual doğuran yenilik - əlaçıların mükafatlandırılmasına pul vəsaiti necə əldə ediləcək...



## Azərbaycan hava hücumundan müdafiə qoşunlarının xüsusi məşğələləri keçirildi

**Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu ilin döyüş hazırlığı planına uyğun olaraq hava hücumundan müdafiə qoşunlarının taktiki-xüsusi məşğələləri keçirilib.**

Müdafiə Nazirliyindən baki-xeber.com-a verilən məlumata görə, məşğələlər zamanı zenit-raket komplekslərinin divizionları mövqe rayonlarına marş edərək start mövqelərinə yerdəyişmə, ərazinin hazırlanması və maskalanması tapşırıqlarını icra ediblər.

Raket bölmələri vacib obyektlərin hava hücumundan mühafizəsi, habelə şərti düşmənin raket zərbələrinin dəf edilməsi üzrə tapşırıqları da yerinə yetiriblər.

## Deputat Əflatun Amaşov Gürcüstanın Azərbaycandakı səfiri ilə Zurabişvili barədə danışdı

**Milli Məclisin deputatı, Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qurupunun rəhbəri Əflatun Amaşov Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze ilə görüşüb.**



Görüşdə Gürcüstan-Azərbaycan münasibətlərinin indiki səviyyəsindən məmnunluq ifadə olunub. Bildirilib ki, ölkələr arasında iqtisadi, siyasi, mədəni və digər müstəvidə əlaqələr daim yüksələn xətt üzrə inkişaf edir. Gürcüstan parlamenti ilə Azərbaycan Respublikasının Milli Məclisi arasında da sıx əməkdaşlıq mövcuddur ki, bu da özünü hər iki ölkənin parlament üzvlərinin müxtəlif beynəlxalq tədbirlərdə regionla bağlı ortaq mövqedən çıxış etmələrində göstərir.

Görüşdə Gürcüstan prezidenti Salome Zurabişvilinin Azərbaycana səfəri üzərində də dayanılıb. Qeyd olunub ki, Gürcüstan prezidentinin hər iki ölkənin torpaqlarının işğalı faktını xüsusi qabartması, işğala son qoyulmasının vacibliyini vurğulaması son dərəcə vacib məqamdır.

Məlum olduğu kimi, 9 aprel tarixi Gürcüstanda dövlət müstəqilliyinin bərpası günü kimi qeyd olunur. 1989-cu il həmin tarixdə sovet qoşunları Tiflisdə gürcü xalqının azadlıq tələbi ilə keçirdiyi dinc mitinqi dağıtmış, nəticədə 21 nəfər həlak olmuş, on minlərlə insan mənşəyi məlum olmayan qazdan zəhərlənmişdi. Bir ildən sonra yanvarın 20-də oxşar faciə sovet qoşunları tərəfindən Azərbaycanda da törədildi. Görüşdə bu barədə müzakirə aparılıb. Səfir Z.Pataradze bildirib ki, rəhbərlik etdiyi ali diplomatik missiya Gürcüstanın müstəqilliyinin bərpasının 30 illiyini geniş qeyd edəcək. Bununla bağlı görülən hazırlıq işlərinə nəzər salınıb, bir sıra məqamlar dəqiqləşdirilib.

# "Ramzan Kadırov Prezident İlham Əliyevi özünə qardaş hesab edir"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Rusiya Federasiyası Çeçenistan Respublikası başçısının müşaviri, Rusiya Dövlət Dumasının deputatı Adam Delimxanovu qəbul edib.**

Adam Delimxanov Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun salamlarını dövlətimizin başçısına çatdırdı və bildirdi ki, Ramzan Kadırov Prezident İlham Əliyevi özünə qardaş hesab edir. Çeçen xalqının Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevi heç vaxt unutmayacağını vurğulayan Adam Delimxanov ən çətin vaxtlarda Heydər Əliyevin onlara göstərdiyi qayğı və dəstəyi böyük ehtiramla xatırladıb.

O, xalqlarımız arasında sarsılmaz dostluq və qardaşlıq münasibətlərinin mövcud olduğunu deyib.



Prezident İlham Əliyev Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ramzan Kadırova çatdırmağı xahiş etdi və qeyd edib ki, onu Ramzan Kadırovla qardaşlıq əlaqələri bağlayır. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan və çeçen xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin dərin tarixi kökləri var və tarix boyu bu əlaqələr daim möhkəmlənib.

Prezident İlham Əliyev Ramzan Kadırovun bu yaxınlarda ölkəmizə səfərini məmnunluqla xatırlayaraq Ramzan Kadırovun çeçen xalqının lideri Hacı Əhməd Kadırovun siyasətini uğurla davam etdirdiyini, Çeçenistanda sabitliyin və əmin-amanlığın bərqərar olduğunu, genişmiqyaslı quruculuq işlərinin həyata keçirildiyini qeyd edib.

**Söhbət zamanı Azərbaycan ilə Çeçenistan Respublikası arasında əlaqələrin Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin daha da inkişafı baxımından əhəmiyyəti vurğulanıb.**

## Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqı problemli kreditlərə görə işi məhkəmədə olan şəxslərin məsələsini müzakirə etdi



**Azərbaycan Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının ümumi yığıncağı keçirilib.**

Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqından "Bakı-Xəbər"ə verilən məlumata görə, yığıncaqda Azərbaycan Respublikası Ümumi Məhkəmə Hakimləri İctimai Birliyinin (Assosiasiyasının) və Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının illik hesabatı dinlənib.

Məruzə ilə çıxış edən birliyin və ittifaqın sədri, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin sədri Əlləddin Cəfərov İttifaqın illik fəaliyyəti barədə məlumat verib.

Tədbirdə, həmçinin, Azərbaycan Respublikası İxtisaslaşdırılmış Məhkəmə Hakimlərinin İctimai Birliyinin (Assosasiyasının) illik hesabatı dinlənib, məruzəçi - birliyin sədri, Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi ötən dövr ərzində Assosiasiyanın fəaliyyəti barədə ətraflı məlumat verib.

Yığıncaqda Ali Məhkəmənin Cinayət kollegiyasının sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Şahin Yusifov, Ali Məhkəmənin Mülki kollegiyasının hakimi Əsəd Mirzəliyev və İnzibati-iqtisadi kollegiyasının hakimi Xəqani Məmmədov "Məhkəmələr tərəfindən qətimkan tədbirlərinin tətbiqi təcrübəsi və qətimkan tədbirinin əsaslarının mövcudluğunun araşdırılması xüsusiyyətləri", "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2019-cu il fərmanından irəli gələn məsələlər barədə (kredit borcları ilə bağlı hazırda məhkəmələrdə olan iddiaların hüquqi taleyi barədə) və "İnzibati mübahisələrə baxılmasının xarakterik xüsusiyyətləri" mövzusunda çıxış edib, məhkəmə fəaliyyətinin aktual məsələləri ətrafında səmərəli müzakirələr, təcrübə və fikir mübadiləsi aparılıb, son il ərzində xarici ölkələrdə xidməti ezamiyyətdə olmuş hakimlər öz təəssüratlarını bölüşüb, qabaqcıl dünya təcrübəsi və məhkəmə fəaliyyəti sahəsində yeniliklər barədə həmkarlarına məlumat veriblər.

Sonda təşkilati məsələlərə baxılıb, hər iki birliyə yeni üzvlər qəbul edilib.

*Baki-xeber.com*

DEMOKRATİK, MÜSTƏQİL QƏZET
BAKI XƏBƏR
www.baki-xeber.com
Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -
Abunə!
Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# Əliyev-Paşinyan Vyana görüşünün nəticələrini dünya dəstəklədi, Ermənistanın özündə "yas qurulub"...

**Azərbaycan və Ermənistan dövlət başçıları arasında Vyanada keçirilən görüşə beynəlxalq dairələrin, nüzulu təşkilatların münasibəti müsbətdir. Görüşdən dərhal sonra BMT-nin baş katibi Antonio Quterreş ATƏT-in Minsk Qrupu çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında martın 29-u Vyanada baş tutan görüşü alqışlayıb.**

Bu barədə BMT baş katibi sözçüsünün Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bəyanatında bildirilib.

Baş katib ölkə rəhbərlərinin sülhə şərait yaradan mühitin əldə olunması və uğurlu danışıqların aparılması üçün əlavə tədbirlərin görülməsinə önəm vermələrini müsbət qarşılayıb. O, həmçinin, atəşkəsin gücləndirilməsi, humanitar problemlərin aradan qaldırılması, eləcə də münaqişənin sülh yolu ilə həlli üçün dialoqun davam etdirilməsinə dair ölkə rəhbərlərinin öz öhdəliklərinə sadiq qalmasını alqışlayıb.

Baş katib ATƏT-in Minsk Qrupu həmsədrlərinin vacib vasitəçilik rolunu yüksək qiymətləndirib və onların davamlı səylərinə BMT-nin tam dəstəyini yenidən bəyan edib. Bunun ardınca digər nüzulu qurum olan Avropa İttifaqı (Aİ) Vyanada Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən görüşü ümidverici hesab edib.

Bu barədə Aİ-nin mətbuat xidmətinin yaydığı bəyanatda bildirilib. Qeyd olunub ki, Azərbaycan və Ermənistan rəhbərlərinin atəşkəs rejiminin gücləndirilməsinə və sülhə xidmət edən əlverişli şərait yaradılmasına sadiqliyi, eyni zamanda, konkret nəticələrə yönəlik danışıqların davam etdirilməsi istiqamətində addımlar atmağa hazır olmalarını bəyan etmələri ümidvericidir. Bəyanatda vurğulanıb ki, Avropa İttifaqı humanitar sahədə tədbirlərin hazırlanmasına dair Vyana razılaşmasının, əhalinin sülhə hazırlanması ilə bağlı iki ölkənin XİN rəhbərləri arasında 2019-cu il yanvarın 16-da Parisdə əldə olunmuş razılaşmanın reallaşmasını səbrsizliklə gözləyir.

Qeyd edək ki, martın 29-da Avstriyanın paytaxtı Vyanada Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında ilk rəsmi görüş keçirilib. Ölkə rəhbərləri əvvəlcə təkbətək görüşüblər, daha sonra danışıqlar ATƏT-in Minsk Qrupunun həmsədrlərinin iştirakı ilə davam edib.

Beynəlxalq qurumların danışıqlara müsbət reaksiya verməsinə baxmayaraq, Ermənistan ictimai rəyində bu mövzuya bir basqının olduğu müşahidə edilir. Onların mediası, siyasiləri, hətta dövlət rəsmiləri danışıqların Ermənistanın ziyanına olduğu və heç bir perspektiv vəd etmədiyi barədə məlumatlar yayırlar. Ermənistanın daxili rəyindəki bu narahatlıq nə ilə bağlıdır və beynəlxaq qurumların Vyana görüşünə verdiyi dəstək yaxın perspektivdə məzmunlu danışıqların başlanmasına necə təsir edəcək?

Politoloq Fikrət Sadıqovun sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyev Vyanada baş tutan görüşdən sonra reallıqları cəmiyyətə çatdırdı: "Prezidentin verdiyi açıqlamada iki məqam xüsusilə əhəmiyyətlidir. Bunlardan biri



Dağlıq Qarabağ konfliktinə dair Ermənistan baş naziri Nikol Paşiyanla, demək olar ki, ilk müzakirədir. Düzdür, buna qədər görüşlər olub, amma bu təmaslar ayaqüstü olub. Hesab edirəm ki, Vyana görüşü əvvəlkilərdən köklü şəkildə fərqlənir. Buna qədər Paşinyan bəyan edirdi ki, Qarabağ separatçıları adından danışmayacaq, onların özləri danışıqlar formatına qatılmalıdırlar. Vyana görüşü ilə Paşinyanın bəyanatı faktiki puça çıxmış oldu. Real olaraq Paşinyan məcbur oldu ki, Azərbaycan dövlət başçısı ilə danışıqlarda iştirak etsin və Qarabağ konfliktinin müzakirəsinə qatılsın. Təbii ki, danışıqlar prosesinin formatı dəyişilməz olaraq qaldı. Prezident İlham Əliyev bu məqamı xüsusilə qeyd etdi ki, danışıqlar prosesinin formatını dəyişmək olmaz, bununla bağlı beynəlxalq strukturların da qərarı var. Əgər bura üçüncü tərəf cəlb olunursa, bu, Azərbaycanın razılığı ilə ola bilər. Azərbaycan isə buna razılıq verməyib. Bu görüş, faktiki olaraq, Paşinyanın danışıqlar formatını dəyişmək məqsədilə atdığı addımları puç etdi".

Fikrət Sadıqova görə, görüşün müsbət tərəfi ondan ibarətdir ki, ilk dəfə Ermənistanın yeni baş naziri ilə problem ciddi müzakirə edilib: "Eyni zamanda, erməni tərəfinə Azərbaycanın qəti və prinsipial mövqeyi çatdırılıb. Yəni Paşinyan başa düşdü ki, işğal edilən torpaqlar Azərbaycanın tarixi torpaqlarıdır və onu azad etməyənə qədər heç bir irəliləyiş ola bilməz. Prezident qeyd etdi ki, bu, danışıqlar prosesinə yeni impuls verdi. İlk dəfə danışıqlar prosesində biz erməni tərəfini bu formatda hərəkət etməyə məcbur etdik. Onlar müxtəlif ziddiyyətli bəyanatlarla çıxış edirdilər, bəyan edirdilər ki, danışıqlarda iştirak etməyəcəklər, prosesə üçüncü tərəf cəlb edilməlidir və s. Amma onların bu məqsədi alınmadı. İlk görüşü müsbət qiymətləndirirəm və hesab edirəm ki, bundan sonra xarici işlər nazirləri səviyyəsində effektiv addımlar olmalıdır. Çünki bu addımların nəticəsində dövlət başçılarına problemin həllinə dair təkliflər hazırlanıb verilməlidir. Bu baxımdan da beynəlxalq qurumların verdikləri qiyməti də real saymaq olar. Perspektiv üçün ümidlər var. Ermənistanın isə Vyana görüşünə aqressiv münasibət bəsləməsinin kökündə mövqelərinin nəzərəçarpacaq dərəcədə sarsılması durur".

***Məhəmmədəli QƏRİBLİ***

# Vaqif Dərgahlı Ermənistan müdafiə naziri Tonoyanın ABŞ səfərinin "ləzzətini" burnundan tökdü...



**Ermənistan tərəfi öz əlaltılarını ortaya atmaqla onları ermənilərin çaldığı mahnını oxumağa sövq edir.**

Baki-xeber.com xəbər verir ki, bunu Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı Ermənistan mətbuatında guya Azərbaycan Ordusunda neqativ halların mövcud olması ilə bağlı yayılan məlumatı şərh edərkən bildirib.

O qeyd edib ki, Ermənistan ordusunda daim baş verən neqativ halların, o cümlədən hərbi qulluqçular arasında nizamnamədənkənar münasibətlərin geniş yayılması, qeyri-döyüş itkilərinin sayının durmadan artması, ordunun zəif təminatı və təchizatı, ən yüksək vəzifəli generalından tutmuş əlahiddə bölmənin tağım komandirinədək bütün hərbi qulluqçuların rüşvətxorluğa bulaşması, xüsusilə də Ermənistanın baş naziri Nikol Paşinyanın da etiraf etdiyi kimi, ordunun kriminal qaydalarla idarə olunması faktlarını beynəlxalq ictimaiyyətdən və erməni əhalisindən gizlətmək və diqqəti yayındırmaq məqsədilə bu ölkənin hərbi rəhbərliyi Azərbaycan Ordusunun uğurlarına kölgə salmaq üçün dərindən-qabıqdan çıxır: "Vaxtilə erməni ordusuna bel, kürək və digər ləvazimatların alınması üçün ondan-bundan maliyyə vəsaiti toplayan, indi isə bu məharətini ABŞ-dakı erməni diasporundan pul dilənməkdə peşəkarcasına nümayiş etdirən müdafiə naziri David Tonoyanın Azərbaycan Ordusuna qarşı çıxış etməkdən başqa heç bir əlacı qalmayıb. Ermənistan tərəfi öz əlaltılarını, ölkəmizdən xaricdə yaşayan bəzi üzdəniraq "hərbi ekspertlər"in qərəzli və həqiqətə uyğun olmayan çıxışlarına istinadən Azərbaycan əsgəri, Ordumuzda həyata keçirilən islahatlar, o cümlədən ali rütbəli hərbi qulluqçularımız barədə qarayaxma kampaniyasını aktivləşdirməklə onları ermənilərin çaldığı mahnını oxumağa sövq edir".

V.Dərgahlı vurğulayıb ki, heç bir real fakta əsaslanmayan, ümumi sözlərlə ifadə olunan xəbərləri yayanların məqsədi güclü Ordumuza və onun vətənpərvər şəxsi heyətinə qarşı Azərbaycan cəmiyyətində inamsızlıq hissləri formalaşdırılmasına cəhd etməkdir: "Biz bu kimi xəbərləri qəti surətdə təkzib edir, onları qərəzli hesab edir və düşmən təbliğatının tərkib hissəsi kimi dəyərləndiririk. Məlumdur ki, xalq ilə ordu arasında qarşılıqlı etimadın gücləndirilməsi istiqamətində mütəmadi olaraq müxtəlif tədbirlər həyata keçirilir. Bu tədbirlərin ən əyani nümunəsi müdafiə nazirinin tapşırığına əsasən Azərbaycan Ordusunun bütün hərbi hissə və bölmələrində keçirilən "Açıq qapı" günüdür. Yerli icra hakimiyyəti orqanları, ictimaiyyətin bütün təbəqələrinin nümayəndələri, əsgər valideynləri və yaxınları hərbi qulluqçular üçün yaradılan xidməti və sosial-məişət şəraiti ilə tanış olurlar. Bu görüşlərdə qonaqlara Ali Baş Komandanın diqqət və qayğısı nəticəsində Ordumuzun silahlanmasına daxil edilən ən müasir silah və hərbi texnika nümayiş etdirilir. Burada iştirak edən vətəndaşlar yaradılmış şəraitə görə hər zaman Ali Baş Komandana və Müdafiə Nazirliyinin rəhbərliyinə öz minnətdarlığını bildirirlər".

O əlavə edib ki, bütün bunlar heç şübhəsiz, düşmənlərimizi, o cümlədən onlara bu işlərdə yaxından yardımçı olan üzdəniraq "hərbi ekspertlər"i qıcıqlandırır və onlar əlacsızlıqdan belə qərəzli və iftira xarakterli məlumatlar yaymaqla nəyəsə nail olacaqlarına ümid edirlər. Lakin onların bu ümidləri hər zaman olduğu kimi, bu dəfə də boşa çıxacaq.

**Məlum olduğu kimi, ötən həftə Avstriyanın paytaxtı Vyanada Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan baş naziri Nikol Paşinyan arasında görüş keçirildi. Paşinyanın səylərinə baxmayaraq, danışıqların formatı dəyişdirilmədi.**

***Fazil Mustafa:*** *"Bu, məqsədli şəkildə ortaya qoyulan biganəliyin göstəricisidir"*

***Ramil Hüseynov:*** *"Danışıqlardan sonra Tonayanın belə bir açıqlama ilə çıxış etməsi açıq-aşkar beynəlxalq hüququn pozulması və danışıqların şantaj edilməsidir"*

# Ermənistan hakimiyyətində Qarabağ ixtilafı, ya oyun - Paşinyan sülhdən, nazir yeni Azərbaycan torpaqlarının işğalından danışır...

Ancaq Ermənistanın baş naziri, əvvəlki kimi, danışıqlarda münaqişənin həlli mexanizmlərini müzakirə etməkdən yayınır. Onun başlıca məqsədi mövcud status-kvonun saxlanmasına nail olmaqdan ibarətdir. Rəsmi Bakı isə münaqişənin tənzimlənməsi zamanı ərazi bütövlüyünün təmin edilməsi, Dağlıq Qarabağ ətrafındakı rayonların qısa zaman ərzində boşaldılmasını tələb edir.

Danışıqlara bəslənən ümidləri aşağı salan fakrorlardan biri də Ermənistan müdafiə nazirinin təxribatçı xarakterli açıqlamalarıdır. Ermənistanın müdafiə naziri David Tonoyan bəyan edib ki, "ərazi qarşılığında sülh" formulunu dəyişərək, onu "yeni ərazilərin işğalı üçün yeni müharibə" formulu ilə əvəzləyib. Məsələ ondadır ki, Tonoyan bunu Nyu-Yorkdakı erməni icmasının nümayəndələri ilə görüşü zamanı Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsini şərh edərkən deyib: "Ermənistanın müdafiə naziri kimi deyirəm ki, mən, "ərazi qarşılığında sülh" formulunu dəyişdirmişəm. Artıq biz bunun tam əksini edəcəyik, yeni "yeni ərazilər üçün yeni müharibə". Heç bir ərazi güzəşti olmayacaq".

D.Tonoyan onu da bildirib ki, bundan sonra Ermənistan hücum bölmələrinin sayını artıracaq: "Biz bu "xəndək vəziyyətindən", daimi müdafiə vəziyyətindən çıxacağıq. Biz hərbi əməliyyatları düşmənin ərazisinə transfer edə biləcək qoşun bölmələrimizin sayını artıracağıq".

Azərbaycan Xarici İşlər Nazirliyi yaydığı açıqlamasında Ermənistan müdafiə nazirinin səsləndirdiyi fikirləri kəskin pisləyib. Qeyd olunub ki, bu, ölkənin işğalçı və qəsbkar siyasətinin Ermənistanın yüksək səviyyəli rəsmisi tərəfindən növbəti etirafıdır: "Ermənistan baş nazirinin Vyanada Azərbaycan dövlət başçısı ilə görüşü nəticəsində münaqişənin sülh yolu ilə həlli üzrə danışıqlar prosesində konkret və nəticəyə yönəlik addımların atılması və sülh mühitinin yaradılması ilə bağlı qəbul edilən birgə bəyanatdan dərhal sonra erməni müdafiə nazirinin belə bir çıxışı təhrikçi xarakter daşıyır və münaqişənin sülh yolu ilə həllinə və bu xüsusda Minsk Qrupunun həmsədrlərinin simasında beynəlxalq ictimaiyyətin səylərinə qarşı çıxır".

O da qeyd olunub ki, Azərbaycan Ermənistan kimi digər dövlətlərin ərazilərinə iddialarla çıxış etmir və ərazilər zəbt etmək fikrində deyil: "Müdafiə nazirinin çıxışı kontekstində, Ermənistan ali rəhbərliyinin şərhlərini eşitmək istərdik: nazir bu çıxışını Ermənistan rəhbərliyinin razılığı əsasında edibmi, yoxsa bu, nazirin, ən azından, danışıqların mahiyyətini və nəticədə qəbul edilmiş birgə bəyanatı şübhə altına alan şəxsi improvizasiyasıdırmı?".



Tonoyanın bəyanatından da görünür ki, işğalçı tərəf öz aqressiv ritorikasından əl çəkmək istəmir. Ən maraqlısı isə odur ki, ATƏT-in Minsk Qrupu və həmsədrlər onun bu dediklərini görməzdən gəldilər. Baxmayaraq ki, Tonayan bir ölkənin rəsmi şəxsidir. Bir ölkənin müdafiə naziri digər ölkənin ərazisini işğal edəcəyini açıq-aşkar bəyan edir, amma buna beynəlxalq qurumlar etiraz etmirlər. Ən başlıcası, ATƏT-in Minsk Qrupu danışıqlarda vasitəçi tərəf olduğu üçün buna etiraz etməli idi. Bildirməliydi ki, bu cür açıqlamalar danışıqları pozur. Ancaq təəssüflər olsun ki, bunların heç biri baş vermədi. O baxımdan sözügedən biganəliyi ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən millət vəkili, Böyük Quruluş Partiyasının başqanı Fazil Mustafanın sözlərinə görə, Tonayanın məlum açıqlaması açıq-aşkar təhdiddir:** "Beynəlxalq qurumlar, o cümlədən vasitəçilik missiyası ilə çıxış edən ATƏT-in Minsk Qrupu isə qəsdən buna reaksiya vermirlər. Baxmayaraq ki, onlar buna hansısa formada etiraz etməli idilər. Çünki bu açıq-aşkar böyük təhdiddir. Eyni zamanda, Ermənistan müdafiə nazirinin səsləndirdiyi fikirlər işğalçılığa çağırışdır və beynəlxalq hüququn prinsiplərinə qarşı çıxışdır. Ancaq, göründüyü kimi, buna beynəlxalq reaksiya yoxdur. Bu, məqsədli şəkildə ortaya qoyulan biganəliyin göstəricisidir. Bütün bunlara baxmayaraq, biz mümkün olan qədər məsələni gündəmdə saxlamalıyıq. Yəni bunu biz doğru istifadə etsək, Ermənistanın ifşa olunması istiqamətində çox önəmli addımlardan birini atmış olarıq. Ona görə də mən də hesab edirəm ki, sözügedən məsələnin gündəmə gətirilməsi olduqca vacibdir. Hesab edirəm ki, bizim tərəfimizdən də məsələ gündəmdə saxlanmalıdır. Bizim borcumuz odur ki, bütün çətinliklərə rəğmən, bu məsələni gündəmdə saxlayaraq Ermənistanın işğalçı dövlət olduğunu dünyaya göstərək".

**VİP-in sədr müavini Ramil Hüseynov da Tonayanın açıqlamasına beynəlxalq qurumların səssiz yanaşmasını pislədi:** "Əlbəttə ki, bu cür susqunluq bütün mənalarda qəbuledilməzdir. Əsasən də ATƏT-in Minsk Qrupunun bunu susqunluqla izləməsi anlaşılan deyil. Azərbaycan tərəfi bənzər açıqlama ilə çıxış etsəydi, o zaman dərhal reaksiya verərdilər. Ancaq Ermənistana gəldikdə, biz bunu görmürük. Danışıqlardan sonra Tonayanın belə bir açıqlama ilə çıxış etməsi açıq-aşkar beynəlxalq hüququn pozulması və danışıqların şantaj edilməsidir. Ona görə də beynəlxalq qurumlar bunu pisləməyə borcludurlar. Təəssüflər olsun ki, ortada olan ikili standartlar səbəbindən buna münasibət bildirilmədi. Mən bunu məhz sərgilənən ikili standartlarla əlaqələndirirəm".

***Vidadi ORDAHALLI***

# AKP ilə CHP arasında İstanbul və Ankarada saxtakarlıq barədə qarşılıqlı ittihamlar başladı...

**Türkiyədə bələdiyyə seçkilərində hakim AK Partiyası 2001-ci ildə təsis olunandan bəri ilk dəfə olaraq paytaxt Ankarada nəzarəti itirib.**

Baki-xeber.com xəbər verir ki, İstanbulda mübahisəli vəziyyət yaranıb. Həm AKP, həm də müxalif CHP Türkiyənin ən böyük şəhəri və iqtisadi mərkəzi İstanbulda qələbə elan edib. Bununla yanaşı, AKP İstanbulda bir çox seçki pozuntularının olduğuna dair dəlillərinin olduğunu bildirib.

CHP-nin namizədi Mansur Yavaşın Ankarada açıq-aydın qələbə çaldığı açıqlanıb.

"İnsanlar demokratiya lehinə səs verdi, onlar demokratiyanı seçdi" - deyə müxalifət lideri Kamal Kılıçdaroğlu bildirib və dünyəvi CHP partiyasının Ankara və İstanbulun nəzarətini AKP-dən aldığını açıqlayıb. Partiya Egey dənizinin sahilində yerləşən İzmir şəhərinə nəzarəti də qoruyub saxlaya bilib.

AKP-nin İstanbul idarəsinin sədri Bayram Şenocak isə seçkidə saxtakarlıq olduğunu iddia edib. O, Binəli Yıldırıma verilmiş səslərin CHP namizədi Əkrəm İmamoğluna yazıldığını deyib: "Açıq şəkildə deyirəm; İstanbulda nəticəyə təsir edəcək şəkildə saxtakarlıqlarla bağlı əlimizdə kifayət qədər faktlar var. Əlimizdəki faktlar güvənirik. Saxtakarlıqları sübut etməyə hazırıq. Istanbuldakı nəticələrə gəldikdə, bizə görə AKP və Binəli Yıldırımı qalib gəlib".

Ankarada da, CHP-nin qalib gəldiyini bildirilsə də, AKP şəhər boyu bəzi bələdiyyələrdəki nəticələrə etiraz edəcəklərini və nəticənin onların xeyrinə çevriləcəyini gözlədiklərini bildirib.




AKP-nin baş katibi Fatih Şahin Ankarada səs verilən seçki məntəqələrinin bir çoxunda etibarsız səslər və qanunsuzluqlar aşkarladıqlarını bildirib. Fatih Şahin bununla bağlı əllərində çox ciddi faktların olduğunu deyib. "Ankarada səs verilən 12158 səsvermə qutusunun bir çoxunda etibarsız səslər və saxtakarlıq aşkar etmişik. Qanuni haqlarımızı sonuna qədər tələb edəcək, ankaralı seçicilərin iradəsinin oğurlanmasına izin verməyəcəyik" - AKP nümayəndəsi deyib.

**Azərbaycan və İsrail arasında dərinləşən hərbi əməkdaşlıq yenə Ermənistanda ciddi narazılıq və narahatlıq yaratmaqda davam edir. Hərbi əməkdaşlığa dair yayılan son məlumatlara Ermənistanda verilən reaksiyalar da bunu təsdiq edir. Məlumatlara görə, İsrail silahları idxal edən ölkələr sırasında Hindistan və Gürcüstandan sonra Azərbaycan 3-cü yeri tutur. Təkcə 2017-ci ildə İsrail Bakıya 170 milyon dollarlıq silah çatdırıb.**

# Ermənistanın Azərbaycan-İsrail hərbi əməkdaşlığını zəiflətmək səyləri tam iflasa uğradı



Ordumuz, həmçinin, hava hədəflərinin məhv edilməsi üçün nəzərdə tutulan İsrail istehsalı "Barak-8" zenit raket komplekslərinə də malikdir. İsrailin ən böyük şirkətlərindən olan "Elbit Systems" Azərbaycan ordusunun T-72 tanklarının böyük bir partiyasını da modernləşdirib. İsrail Bakıya, həmçinin, müasir 120 millimetrlik CARDOM minaatanları da ixrac edir. Bu minaatan müasir atəşin idarə olunması sisteminə, naviqasiya blokuna, avtomatik yönləndirmə sisteminə və özünəməxsus güc qurğusuna malikdir. Başqa adı ilə "Raduqa" adlandırılan bu minaatan müxtəlif tipli zirehli texnikaların döyüş bölməsində yerləşdirilmək üçün yararlıdır.

Bundan başqa, Azərbaycana yarım dəqiqə ərzində minalanmış sahələrdə 50 metr uzunluğunda və 1.5 metr enində keçid zolağı açmaq qabiliyyətinə malik olan minadan təmizləmə POMINS-2 kompleksləri də ixrac edilib. Azərbaycanın İsraildən "Storm" avtomobillərini də aldığı qeyd olunur. Rəsmi mənbələr tərəfindən təsdiqlənməsə də, mediada "Dəmir qübbə" raket əleyhinə komplekslərə də sahib olduğumuz vurğulanır. Qeyd edək ki, "Dəmir qübbə" istənilən operativ-taktiki raket kompleksləri, o cümlədən Rusiya istehsalı olan "İsgəndər" komplekslərinə qarşı kifayət qədər effektiv mübarizə aparır.

Müxtəlif mənbələrin məlumatlarına əsasən, hərbi məhsulların ixracatının tərkibində ən müxtəlif tipli pilotsuz uçuş aparatları, o cümlədən fəaliyyət radiusu 1000 kilometrə çatan ən yeni zərbə modifikasiyaları əhəmiyyətli yer tutur. İxracatına 2015-ci ildə başlanmış ən güclü İsrail dronlarından biri lisenziya əsasında Azərbaycandakı zavodlardan birində istehsal edilir. Rusiyanın "Nezavisimaya qazeta" nəşri yazır ki, Azərbaycanın Müdafiə Nazirliyi tərəfindən eyni zamanda gecə müşahidəsi cihazları və elektron nişanalma sistemləri alınıb. İsraildən müdafiə məqsədli kibernetik sistemlərin ixracatı perspektiv istiqamət hesab oluna bilər. Çox ola bilsin ki, yaxın zamanlarda çoxprofilli uçuş aparatlarının istehsalı üzrə Azərbaycan Müdafiə Nazirliyi ilə İsrailin "Aeronautics" konserni arasında müqavilə gerçəkləşsin.

Bildirilir ki, Azərbaycan ordusunun sərəncamına İsraildə istehsal edilmiş "Green Pine" raket əleyhinə radiolokasiya sistemi də verilib. "Israel Aerospace Industries" konserninin törəmə strukturu olan "ELTA Systems" şirkəti tərəfindən istehsal olunan bu mobil radiolokasiya sistemi avtonom şəkildə rəqib tərəfindən radioelektron mübarizə vasitələrindən istifadə edildiyi şəraitdə onlarla taktiki ballistik raketi izləmək və aşkar etmək üçündür.

Azərbaycanlı hərbçilər İsrail istehsalı olan B-300 qumbaraatanı ilə təchiz olunublar ki, bu silah 400 mm-ə qədər qalınlığı olan homogen zirehi dəlib keçmək qabiliyyətinə malikdir. Eyni zamanda, İsrailin "Rafael" şirkətinin istehsalı olan "Spayk" çoxfunksiyalı raket kompleksləri də Azərbaycana ixrac olunur. 2016-cı ildə Britaniyanın "Military Balance" illik nəşri məlumat verib ki, Azərbaycana İsrailin istehsalı olan beş ədəd 155 millimetrlik özüyeriyən "ATMOS 2000" artilleriya qurğusu ixrac edilib. "Tatra T815 VVN 6x6" şassisində bu özüyeriyən sistem canlı qüvvənin, artilleriya batareyalarının, uzunmüddətli atəş nöqtələrinin vurulması, həmçinin minalanmış ərazilərdə və səhra sədlərində keçidlərin təmin edilməsi üçündür.

Yuxarıda qeyd olunduğu kimi, Azərbaycan və İsrail arasında hərbi əməkdaşlıq Ermənqistanda yenidən ciddi narahatlıq yaradıb. Yayılan məlumatları şərh edən erməni hərbi ekspert Ruben Tovosyan vurğulayır ki, İrəvanın bütün cəhdlərinə rəğmən, İsrail Bakı ilə hərbi əməkdaşlığı genişləndirir: "Azərbaycan İsraildən ən müasir silahlar alır və bununla hərbi üstünlüyünü artırır. Biz bu prosesi dayandırmaqda acizik. İsrail üçün Ermənistanla deyil, Azərbaycanla əməkdaşlıq daha önəmlidir. Ermənistan Azərbaycanla İsrail dövləti arasında əməkdaşlığa son qoyulmasını istəyir. Amma görünən budur ki, İsrail Azərbaycanın dostu, həm iqtisadi və siyasi, həm də təhlükəsizlik məsələləri üzrə onun strateji tərəfdaşıdır".

Xatırladaq ki, iki ölkə arasında indiyə qədər dəyəri 5 milyard dollara yaxın hərbi sazişlərin imzalanması nəticəsində Azərbaycan İsraildən ən müasir hərbi texnologiyalar ala bilib. İsrail-Azərbaycan hərbi əməkdaşlığının Ermənistan tərəfindən tənqid edilməsi isə İrəvan üçün hansısa nəticə vermir. Bakı ilə Təl-Əviv açıq şəkildə bəyan edirlər ki, Azərbaycan və İsrail dostlarını, tərəfdaşlarını üçüncü ölkələrin mövqeyindən asılı olmayaraq özləri seçir. Eyni zamanda, hərbi-texniki sahədə strateji əməkdaşlığın və tərəfdaşlığın səviyyəsini özləri müəyyən edir. Bu fonda Ermənistanın bu əməkdaşlığa qarşı cəhdləri də bəri başdan iflasa məhkumdur.

***Nahid SALAYEV***

---

**ABŞ Konqresindəki erməni lobbisi Azərbaycan əleyhinə növbəti dəfə fəallaşıb. Məsələ ondadır ki, Nümayəndələr Palatasının 35 üzvü Konqresin Erməni məsələsi komitəsinin Ermənistana və Dağlıq Qarabağdakı separatçılara 100 milyon dollar dəyərində maddi yardım göstərmək çağırışını dəstəkləyib.**

# Erməni lobbisi Qarabağ separatizminə yüz milyon yardım üçün yalnız 35 konqresmenin imzasını ala bildi...

## *Mübariz Əhmədoğlu: "İnanmıram ki, Konqresin Erməni məsələsi komitəsinin qaldırdığı təşəbbüs reallaşsın"*



*"Azərbaycanla olan münasibətlərə görə ABŞ Ermənistana 100 milyon dollar ayırmaz"*

Bu barədə ABŞ-da fəaliyyət göstərən Amerika Erməni milli komitəsi məlumat yayıb.

Erməni lobbisi, hər il olduğu kimi, bu dəfə də Dağlıq Qarabağdakı cinayətkar rejimə maliyyə yardımını müxtəlif adlar altında göstərməyə çalışır. Guya həmin vəsaitin 6 milyon dolları Dağlıq Qarabağ ərazisinin minalardan təmizlənməsinə və əlillərin reabilitasiyasına, 4 milyon dollar ATƏT-in monitorinqi altında yanğın aşkarlama sistemlərinin tətbiqi daxil olmaqla, sülhə hazırlaşmağa sərf olunacaq. Ermənistana ayrılan 60 milyon dolların 10 milyonu hərbi yardım, 20 milyon dolları isə Yaxın Şərqdən olan qaçqınların təminatı üçün nəzərdə tutulub. Halbuki, Ermənistan Yaxın Şərqdən olan qaçqınları bu ölkədə yerləşdirmir. Əksinə, Suriyadan olan erməni əsilli qaçqınları qanunsuz olaraq Dağlıq Qarabağda yerləşdirir. Budur Ermənistanın yeritdiyi siyasət.

Onu da qeyd edək ki, Konqresin Erməni məsələsi komitəsinə Frenk Pellone rəhbərlik edir. Müraciəti imzalayanlar həm də ABŞ-dan Azərbaycana hərbi yardımları dayandırmağı və "907-ci Düzəliş"i icra etməyi təklif edib. Xatırladaq ki, 1992-ci ildə erməni lobbisinin təsiri altında qəbul edilmiş "Azadlığa Müdafiə Aktına 907-ci düzəliş" adlı qətnamə Azərbaycana birbaşa dövlət yardımını qadağan edir.

Ermənistan və separatçı qurum üçün nəzərdə tutulan 100 milyon dollar kifayət qədər böyük vəsaitdir. Ona görə də ABŞ Nümayəndələr Palatasında belə bir çağırışın səslənməsi erməni lobbisinin təxribatçı fəaliyyətinin nəticəsidir. Ən başlıcası isə, bu, ABŞ-ın Azərbaycanla olan münasibətlərinə, bu ölkənin maraqlarına ziddir. O üzdən, ABŞ öz dövlət maraqlarından çıxış edərək buna yol verməməlidir.

Bu baxımdan maraqlıdır, bəs ekspertlər yaranan vəziyyəti necə şərh edirlər? Ermənistana və separatçılara sözügedən yardımın edilməsinə imkan yaradılacaqmı? Bunun qarşısını necə almaq olar?

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun sözlərinə görə, ermənipərəst konqresmenlərin səylərinə rəğmən, Birləşmiş Ştatların buna gedəcəyi real görünmür:** "Buna iki istiqamətdən yanaşmaq lazımdır. Birincisi, ABŞ-ın özünün Ermənistanın apardığı siyasətdən xoşu gəlmir. Birləşmiş Ştatlar hesab edir ki, Paşinyanı onlar hakimiyyətə gətirib. Ancaq Paşinyan isə Rusiyaya yönəlik gedişlər edir və Putin nə deyirsə onu edir. Bir sıra ABŞ siyasətçilərinin fikrincə, hətta Rusiyaya müqavimət göstərməkdə Serj Sarkisyan Paşinyandan qat-qat güclü şəxsiyyət idi. Birləşmiş Ştatlar hazırda Ermənistana heç bir yardım etmir. O baxımdan inanmıram ki, Konqresin Erməni məsələsi komitəsinin qaldırdığı təşəbbüs reallaşsın. Digər tərəfdən, burada Azərbaycanın maraqlarının nəzərə alınması məsələsi də var. Çünki hazırda ABŞ Cənubi Qafqaz siyasətini yenidən qurmaq istəyir. Cənubi Qafqaz siyasətində də Azərbaycanın yeri ayrıdır. Azərbaycansız bunu həyata keçirmək mümkün deyil. Ona görə də Azərbaycanla olan münasibətlərə görə ABŞ Ermənistana 100 milyon dollar ayırmaz. Məbləğ həm də siyasi dəstəyin göstəricisidir. O üzdən, inanmıram ki, ABŞ Ermənistana belə böyük həcmdə yardım etsin".

***Vidadi ORDAHALLI***

**Şərur Naxçıvan MR-in ərazisinə və əhalisinə görə ən böyük rayonu olub. Hazırda Şərurun inzibati əraziləri hesabına daha iki rayon yaradılıb. Sədərək və Kəngərli Şərurdan ayrılaraq müstəqil rayon kimi fəaliyyət göstərsələr də, Şərur MR-dəki böyüklüyünü yenə saxlayır. Bunu təsadüfən xatırlatmadım.**

# Tanınmış şərurlular İsfəndiyar Axundovu "Şərurlu" adından imtina etməyə çağırdılar



Yəqin bilirsiniz ki, belə böyük rayondan heç də az olmayan sayda ziyalılar, tanınmış alimlər, dövlət xadimləri və iş adamları çıxıb. Amma nadir halda görünür ki, onlardan kimsə özünü məhz "Şərurlu filankəs" kimi təqdim etsin.

Bu adla özünü təmtəraqlı şəkildə təqdim edənlərdən birini yəqin ki, çoxunuz tanıyırsınız. Söhbət iş adamı, "Şərurlu İsfəndiyar" kimi tanınan İsfəndiyar Axundovdan gedir. Təbii ki, qanunvericilik kiməsə cəmiyyətdə necə təqdim edilməyi qadağan etmir. Hətta İsfəndiyar Axundov mediaya müsahibəsində deyib ki, bu cür təqdimatdan o qədər də xoşlanmır və kökən heç Şərur rayonundan da deyillər. Aydındır ki, İsfəndiyar Axundov ona bu adı daşımaqla bağlı bildirilən iradların fonunda belə açıqlama verməyk məcburiyyətində qalıb. 90-cı illərin əvvəlindən Bakıda böyük biznesə başlayanda o, bu adla tanınmağa başlayıb və heç vaxt kiməsə belə çağırılmaqla bağlı nə rəsmi, nə də qeyri-rəsmi etiraz etməyib. Yəqin İsfəndiyar müəllim bilir ki, belə təqdimatı adının önünə yazmaqla ikiqat məsuliyyət daşımalı olur. Çünki onun edəcəyi yaxşı və pis əməllərin hamısı daşıdığı şəxsi adından öncə, həm də bilərəkdən adının önünə əlavə etdiyi məkanın adı ilə də bağlı olur. Son günlər İ.Axundovun adı şəhid ailəsinin mənzilini məhkəmə yolu ilə əlindən almaqda hallandı. Bundan bir müddət əvvəl isə mediada belə bir başlığa rast gəldim: "Şərurlu İsfəndiyar 150 ailəni süründürür". Bu cür xəbər təqdimatı ilə ilk dəfə rastlaşsaydım, heç reaksiya da verməzdim. Etiraf edim ki, uzun illərdir bu adamın adı mediada heç də xoşagəlməyən hadisələrdə hallanır. Məlumat üçün deyim ki, İ.Axundov Şərur rayonunun Siyaqut kəndində yaşayıb və sonra Bakıya köçüb. Özü müsahibəsində deyir ki, həmin kəndə Qərbi Azərbaycandan gəliblər. Bəlkə də insan kimi pis adam da deyil. Şəxsən mənə nə yaxşılığı keçib, nə də pisliyi. Amma mən jurnalistikada olandan bu iş adamının adının yalnız mənfi dividend gətirən olaylarda hallandığının şahidi olmuşam. Kim inanmırsa, axtarış sistemlərində bir "Şərurlu İsfəndiyar" yazıb baxsın. Axı bu məlumatların hamısı qərəzli ola bilməz. Çox təəccüblüdür, məgər bu adam bir xeyirxah əmələ imza atmır?

Tanıyanlar deyirlər ki, belə jestləri də az olmayıb. Maraqlıdır, bu boyda varidatın qabağında bunun yanında bir sərištəli adam yoxdur ki, heç olmasa onun mediada piarını qursun? Piar demirəm, heç olmasa gördüyü işləri işıqlandırsın? İstənilən halda, adı yalnız mənfi məsələlərdə hallanan adamın adının önündə böyük bir rayonun adının çəkilməsinə qarşıyam.

Bəlkə də İsfəndiyar müəllim məni heç dünəndən bəyənmir. Görüşsək deyər ki, Şərurun adına o yox, mən ləkəyəm. Buna baxmayaraq, İsfəndiyar müəllim kreativləşməlidir. Anlamalıdır ki, yalnız pul yığmaqla iş bitmir. Reputasiyasının qeydinə də qalmalıdır. Ya da özünü şərurlu kimi təqdim etməkdən yavaş-yavaş imtina etməlidir. Gəlin görək, əslən Şərur rayonundan olan ziyalılar bu mövzu ilə bağlı nə düşünürlər?

Əslən Şərur rayonundan olan, AMEA Folklor İnstitutunda aparıcı elmi işçi, filologiya üzrə fəlsəfə doktoru Əpoş Vəliyev qəzetimizə bildirdi ki, kiminsə öz regionunu özü üçün soyad və ya ləqəb götürməsinin əleyhinədir: "Doğulduğu, yaşadığı regionun adını özü üçün ləqəb, soyad seçənlər hər bir işində diqqətli olmalı, etdiyi hərəkətlərin doğuracağı nəticəni əvvəlcədən yüz dəfə ölçüb biçməlidirlər. Çünki onların hər hansı bir səhvi bir regionun adının pis mənada hallanmasına, həmin regiondan olan digər insanların isə narazılığına gətirib çıxarır. Bəzən fürsətdən istifadə edilərək həmin yarıtmaz şəxsin timsalında bütöv bir regionun insanlarına qarşı kin, nifrət aşılanır. Bu isə yolverilməzdir. Ona görə də yaxşı olar ki, region adlarını özlərinə soyad, ləqəb kimi götürənlər xüsusilə diqqətli olsunlar, təmsil etdikləri regionun adını daim uca tutsunlar, regionun nüfuzuna zərbə vuracaq əməllərdən uzaq dursunlar, təmsil etdikləri regionun insanlarını xeyirxah, alicənab, vətənpərvər kimi tanıtsınlar".

Əslən Şərur rayonundan olan Azərbaycan Respublikası Kinematoqraflar İttifaqının mətbuat xidmətinin rəhbəri Əli Vəliyev də qəzetimizə bildirdi ki, İ.Axundov kimi şəxslərin yaratdığı mənzərəyə görə məsələyə münasibəti birmənalı deyil: "Buna qarşıyam. Çünki yaxşı olanda haralı olduğunun önəmi yoxdur, ancaq pis olanda haralı olduğu sualı verilir. Bəzən söyülür, təhqir edilir. Beləliklə, bir adama görə bir böyük rayonun reputasiyası məhv olur, imicə zərbə dəyir. Son təcrübədə də bunun şahidi olduq. Əvvəl söyüş yazılırdı, ardınca rayonun adı, sonra şəxsin öz adı. Belə olmaz!"

Əslən Şərurdan olan digər tanınmış jurnalist Nahid Canbaxışlı da qəzetimizə bildirdi ki, İsfəndiyar Axundov şəxs olaraq bütün rayonu təmsil edə bilməz: "Əminəm ki, İ.Axundova məhz şərurlu kimi təqdim olunmağın ziyanı dəyməyib. Hansı xeyrinin dəydiyini isə özü daha yaxşı bilir. Hərçənd ki, öz müsahibəsində heç əslən şərurlu olmadığını da deyir. Amma bu adam fikirləşməlidir ki, ziyanı dəyməyən adın ehtiramını nə cür saxlaya bilib. Uzun müddətdir jurnalistikadayam. Bu adamın adının ancaq qalmaqallarda çəkildiyinin şahidi olmuşam. Hansı saytı açırsan, yazırlar ki, İ.Axundov bir mənzili bir neçə nəfərə satıb və s. Xoşagələn hal deyil. Necə olur ki, Azərbaycana böyük fayda verən, əslən Şərurdan olan tanınmış alimlər, generallar, dövlət xadimlərinin adının önündə biz belə təqdimata rast gəlmirik? Bu səbəbdən də əsasən media belə mövzularda diqqətli olmalıdır. Çox xahiş edirəm ki, bundan sonra həmin adamın adı mediada İ.Axundov kimi təqdim edilsin".

Şərur rayonundan olan başqa bir jurnalist Səbuhi Qafarov qəzetimizə bildirdi ki, həmin iş adamının şəhid ailəsinə qarşı etdiyi son hərəkət onu və ümumilkdə, cəmiyyəti dərindən təəccübləndirib: "Rayon adlarını özlərinə təxəllüs edən şəxslərlə bağlı münasibətim yaxşı deyil. Çünki bu tip insanlar heç də həmin region və ya rayonların gerçək siması ola bilməz. Biz daha çox bunu edənlərin məqsədini sui-istifadə hallarında görürük. Əkrəm Əylisli kimi tanınmış yazıçının buraxdığı kobud səhvə görə ilk olaraq onun kəndinin adı hallandı. Çünki özünə həmin kəndin adını təxəllüs kimi götürmüşdü. İlk etiraz da elə həmin kənddən gəldi ki, kəndin adını batırır. Yaxşı olardı ki, insanlar yaxşı əməlləri ilə, xeyriyyəçilikləri ilə adlarını yaddaşlara yazsınlar. Hesab edirəm ki, bu cür hallara xüsusi önəm verilməlidir. Bunun ən böyük günahını elə media adamları kimi özümüzdə də görürəm. Kimi istedisə, onun adının qabağına rayonun adını yazıb cəmiyyətə təqdim etməməliyik".

*Məhəmmədəli QƏRİBLİ*

---

**Paytaxtda piyadaların yolu rahat və təhlükəsiz keçməsi üçün yeraltı və yerüstü keçidlərin yaradıldığının hamımız şahidiyik. Amma əksər vaxtda Bakının bərbəzəkli, gözqamaşdıran yeraltı və yerüstü keçidlərinin bir çoxunda eskalatorlar işləmir.**

***Anar Nəcəfli:*** *"Yaxın zamanlarda eskalatorların ehtiyat hissələri dəyişdirilərək işlək vəziyyətə gətiriləcək"*

***Azər Allahverənov:*** *"Əlilliyi olan və ya yaşlı insanlar işləməyən eskalatorlarla hündür pillələri qalxıb düşərkən çətinlik çəkirlər"*

# Bakının yeraltı keçidlərində eskalatorlar niyə işləmir...

Keçidlərdəki eskalatorların yararsız vəziyyətə düşməsi xüsusilə də yaşlı, əlilliyi, səhhətində problemi olan insanların bu keçidlərdən istifadəsini çətinləşdirir və onları yolun təhlükəli, qadağan olunmuş hissəsindən keçməyə təhrik edir. Eskalatorlar işləmədiyi üçün insanlar məcburən keçidlərdən ayaqla enib-qalxırlar. Bu hal şəhərin bir sıra ərazilərində müşahidə olunur. Əsasən Mərkəzi Bankla üzbəüz parkdakı keçid, eyni zamanda, Atatürk prospekti ərazisində yeraltı keçiddə üzüyuxarı və üzüaşağı işləməli olan iki eskala-



tor var. Ancaq qeyd etdiyimiz ünvanlarda olan keçidlərdə eskalatorların heç biri işləmir. Belə olan vəziyyətdə sakinlər ayaqla təngnəfəs yolun o biri üzünə çıxmalı olur.

**Mövzu ilə bağlı "Azəravtoyol"un mətbuat xidmətinin rəhbəri Anar Nəcəfliyə müraciət etdik.** O, "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Bakının bəzi ərazilərində yeraltı keçidlərdə eskalatorların işlək olmaması barədə məlumatlıdırlar: "Təəssüf ki, eskalatorlar Azərbaycanda istehsal olunmadığı üçün, xaricdən sifariş verməli oluruq. Eskalatorların təmir olunması üçün ehtiyat hissələri sifariş verilib. Ehtiyat hissələr əsasən Almaniya, Çin və Türkiyədən gətirilir. Yaxın zamanlarda ehtiyat hissələr dəyişdirilərək işlək vəziyyətə gətiriləcək".

**Yol təhlükəsizliyi və yol hərəkəti qaydaları üzrə ekspert Azər Allahverənov qəzetimizə açıqlamasında qeyd etdi ki, yerüstü və yeraltı keçidlərdə eskalatorların işləməməsi insanlara əlavə problemlər açır:** "Biz hər yerdə deyirik, bəyan edirik ki, insanlar yeraltı və yerüstü keçidlərdən istifadə etməlidirlər. Çünki yollardan birbaşa keçərkən öz həyatlarını təhlükə altına ata bilərlər. Bəllidir ki, eskalatorun işləməməsi insanı çətin duruma salır. Əlilliyi olan və ya yaşlı insanlar işləməyən eskalatorlarla hündür pillələri qalxıb düşərkən çətinlik çəkirlər. Bu isə onlara çox çətin başa gəlir. Obyektiv səbəbdən işləməyən eskalatorlardan istifadə etməyərək, birbaşa yolu qadağan olan hissədən keçərək həyatlarını təhlükə altına atırlar. Nəticə etibarilə bir tərəfdən həyatları təhlükə altına düşür, digər tərəfdən qəza şəraitinin yaranmasına səbəb olurlar".

Həmsöhbətimizin sözlərinə görə, yeraltı və yerüstü keçidlərdə insanların rahatlığının təmin olunması üçün eskalatorların işlək olmasını aidiyyəti qurumlar mütəmadi nəzarətdə saxlamalıdırlar. Dövlət qurumları ilə yanaşı, vətəndaşlar da bu məsələdə fəal olmalıdırlar. Hansı keçiddə eskalator işləmirsə, vətəndaş dərhal bu barədə aidiyyəti qurumu məlumatlandırmalıdır.

Ekspert onu da vurğuladı ki, Bakı şəhərinin bəzi yeraltı və yerüstü keçidlərində ciddi problemlər var: "Bəzi keçidlərə yağış yağarkən su dolur. Bu da drenaj sisteminin olmaması ilə bağlıdır. Həmin keçidlər istifadə üçün yararsız olur, piyadalar oradan keçə bilmirlər".

*Günel CƏLİLOVA*

# Ermənistanın ali təhsilində fəlakət rəqəmləri - "məxməri inqilab"ın əsas qüvvəsi olan gənclər də korrupsiyanın qabağını ala bilmir

**Ermənistanda iki əsas qanun ali təhsil sistemini tənzimləyir: Təhsil haqqında Qanun (1999) və Yekun və Yüksək Səviyyəli Təhsil haqqında Qanun (2004). Ermənistan regionun digər ölkələri ilə müqayisədə təhsilə daha az vəsait ayırır. Sovet dövründə Ermənistanda ali təhsil sistemi olduqca yaxşı dəstəklənib və maliyyələşdirilib. Sonrakı illərdə ölkədəki sosial, iqtisadi və siyasi dəyişikliklər ali təhsil sisteminə ciddi təsir göstərib.**

Bu dəyişiklik özünü əsasən özünüidarəetmə formasında göstərib. Ermənistanın dövlət büdcəsindən təhsil sektoruna ayrılan vəsaitin azlığı, hökumət tərəfindən təhsil sisteminin lazımi səviyyədə dəstəklənməməsi təhsildə müxtəlif problemlər və qeyri-müəyyənlik yaradıb. Səbəb isə ölkənin bazar iqtisadiyyatına keçməsi ilə bağlıdır ki, universitetlər indi azad bazar iqtisadiyyatı şəraitində yaşamaq üçün mübarizə apara bilmir. Yəni universitetlər artıq maliyyə cəhətdən hökumətə güvənə bilmir və təhsil müəssisəsinin idarəsi üçün müxtəlif gəlir mənbələrinə - tələbələrin illik təhsil haqqı ödənişlərinə, universitet mülkiyyətinə, yerli biznes, yerli və xarici yardım təşkilatlarına yönəlməli olurlar.

Təhsil problemlərini aşağıdakı kimi xarakterizə etmək olar:

- siyasi rejimin şişirdilmiş nəzarəti;
- islahatların orijinal proqramının olmaması;
- geniş yayılmış korrupsiya;
- keyfiyyət standartlarının davamlı olaraq azaldılması;
- Gənc istedadların kütləvi miqrasiyası.

Ermənistanda dövlət 2011-2015-ci illərdə təhsil sahəsinə ÜDM-nin 4% -ni xərcləməyi planlaşdırsa da, 2016-cı ilədək bu göstərici yalnız 2,5% olub. 2018-ci il büdcəsi ilə bağlı müzakirələr zamanı maliyyə nazirinin müavini Atom Janjugazyan bildirib ki, 2018-ci ildə təhsilə xərclər daha da azalacaq. Yəni 2017-ci ildə bu rəqəm ÜDM-in 2,4%-ni təşkil edirdisə, sonrakı ildə bu 2,2%-ə enib. Qarşıdakı üç ildə Ermənistan dövləti təhsil sektoruna ayırmaları daha da azaltmağı planlaşdırır və bunun nəticəsində ölkənin təhsil sahəsinə ayırdığı vəsaitin miqdarı ÜDM-də 1,85% -ə qədər düşə bilər. Buradan məlum olur ki, hökumət təhsil məsrəflərini "israfçılıq" hesab edir.

Təbii ki, maddi problemlər universitet professorlar və müəllim heyəti üçün də ağır nəticələr doğurur. Əmək haqqının aşağı olması səbəbindən, yüksək ödənişli iş tapmaq məqsədilə mütəxəssislər universitetləri tərk edir.



Professor Serob Xaçatryan qeyd edir ki, "Universitetdəki dərs saatları 25 % azalıb. Baxmayaraq ki, savadlı mütəxəssislərin sayı çox azdır, bununla belə universitetlər onları saxlamağa cəhd etmir". Əslində görmək çətin deyil ki, Ermənistan universitetlərinin illik təhsil haqqı ilə müəllim maaşları tərs mütənasibdir.

Təhsildə yaranan maddi problemlər bir növ ölkədəki korrupsiya ilə də əlaqələndirilir. Korrupsiya ölkənin iqtisadi inkişafı üçün mühüm əhəmiyyət kəsb edən "istehsal və yenilənmə prosesi"ndə iştirak edən insan kapitalının formalaşmasına mənfi təsir göstərə bilər. Ermənistanda korrupsiya ilk öncə vergi sistemində özünü büruzə verir. Vergi sistemində qanunsuzluq nə qədər yüksək olarsa, dövlətin gəliri də bir o qədər aşağı olar və bu da, təhsil və daxil olmaqla, digər dövlət xidmətlərinin maliyyələşdirilməsi üçün lazım olan büdcənin aşağı düşməsi ilə nəticələnər. Bunun təsiri ilə ikinci olaraq korrupsiya özünü insan kapitalinin formalaşması üçün vacib olan sosial xərclərin maliyyələşdirilməsində göstərir ki, bu da təhsil və səhiyyə sahələri üzrə olan büdcənin azaldılmasıdır. Qeyd edə bilərik ki, Ermənistanda təhsil və səhiyyə sektorları ən çox korrupsiyaya məruz qalan sahələrdir. Yəni Ermənistanda yüksək korrupsiya, aşağı təhsil və səhiyyə deməkdir.

CSDU (CivilSociety-Development Union) sorğusuna əsasən, Ermənistanda

Xüsusilə 1980-ci illərdən etibarən, Sovet dövründə Ermənistanda rüşvət geniş yayılmışdı ki, bəzi hallarda rüşvət problemlərini daha səmərəli həll edə bilən bir normaya çevrilmişdi. Hətta 2000-ci ildə "Aravot" erməni qezetində Dövlət büdcə naziri Qaqik Poqosyanın bütün vergi müfəttişlərinə gizli şəkildə əmr verdiyi barədə yazı yayımlanmışdı. Yazıda qeyd olunurdu: "Yoxlanış və monitorinq zamanı səhv və qanun pozuntuları olmasa belə, 1 milyard dram toplamalısınız, büdcəyə çox pul lazımdır".

Sovet İttifaqının dağılmasından sonrakı illər ərzində də korrupsiya Ermənistanın ali təhsil sisteminin təxminən hər bir hissəsində özünü büruzə verirdi. 2015-ci ildə Açıq Cəmiyyət Fondu tərəfindən edilən bir araşdırmada universitetlərdə akademik sənədlərin qeyri-qanuni alınması üçün geniş bir şərait yaradıldığı ortaya çıxdı. Hətta 2018-ci ildə Fələstin KİV-ində Ermənistanda tələbələrə qeyri-qanuni diş həkimi diplomları verildiyini ortaya qoyan bir qalmaqal üzə çıxdı. Bu hadisə həmin tələbələrin İsraildə tibbi lisenziya almaq üçün müraciəti zamanı aşkar olunmuşdu. Ərəb Birliyinin sədri Fəxri Həsən müsahibəsində polisin 200 saxta tibb işçisi diplomu aşkar etdiyini və bunların 56 ədədinin Ermənistan universitetləri tərəfindən verildiyini bildirdi. Fəxri Həsən eyni zamanda qeyd edir ki, "Tələbələrdən bəziləri bu diplomları bir neçə həftə içində əldə edə bilirdi. Ermənistanda bu

korrupsiyanın ən vacib səbəbi aşağı əmək haqqıdır. Əhalinin çoxu üçün yaşayış xərcləri kəskin dərəcədə yüksəkdir. Ermənistanda insanlar əsasən rüşvət vasitəsi ilə problemlərini "qanuni" həll etməyə məcbur edilir.

əməliyyatı həyata keçirən cinayətkar qruplar var. Bu diplomlar həm dövlət, həm də özəl universitetlər tərəfindən eyni zamanda rus universitetləri tərəfindən verilir. İordaniyada və digər bir sıra ölkələrin universitetlərində

oxuyan, lakin birinci il uğursuz olan tələbələr bir il ərzində Ermənistandan diplom ala bildilər. Hətta onların bəziləri diş klinikaları açmağı və fəaliyyət göstərməyi bacardı. Bu, təhlükəli bir hadisədir. Mən Səhiyyə Nazirliyinə və polisə müraciət etmişəm ki, Ermənistanın ali məktəblərindən alınmış sənədlər araşdırılsın". Ümumiyyətlə, bu hadisə Ermənistanda təhsil sahəsinə olan güvəni tamamilə sarsıtdı.

Korrupsiyaya qarşı tələbələr müəyyən qədər etirazlar bildirsələr də, bunlar nəticəsiz qalır. 2018-ci ildə tələbələr Yerevan Dövlət Universitetinin rektorunu devirmək üçün aktiv addımlar atmağa başladılar. Onlar maliyyə resuslarının səmərəsiz istifadəsi, təhsilin aşağı keyfiyyəti, tələbə və müəllimlərin siyasi baxışlarına qarşı təqiblərin baş verdiyini vurğulayaraq rektorun işdən çıxarılmasını tələb etdilər. Rektor Aram Simonyan davam edən sui-istifadələrə icazə verdiyinə görə günahlandıran tələbələr qeyd edirdi ki, Yerevan Dövlət Universitetinin atmosfer və vəziyyəti müasir dövr prinsiplərinə və dəyərlərinə uyğun gəlmir. Bu uyğunlaşma prosesi isə çox sürətlə başa çatdırılmalıdır". Lakin tələbələrin bu cəhdləri uğursuzluqla nəticələndi.

Qeyd edə bilərik ki, Ermənistanda Nikol Paşinyanın hakimiyyətə gəlməsi ilə nəticələnən "məxməri inqilab"ın əsas dəstəkverici qüvvəsi tələbələr idi. Belə ki, S.Sarkisyanın yarıtmaz rejiminin ən çox ziyan vurduğu sahələrdən biri təhsil sistemi, zərərçəkənləri isə tələbələr idi. Davamlı artan qiymətlər, açıq-aydın reallaşdırılan korrupsiya bu rejimin əsas göstəriciləri idi. Tələbələr Nikol Paşinyanın rəhbərliyi ilə bir çox müsbət islahatların keçiriləcəyinə ümidvar olsalar da, seçkilər keçirildikdən sonra Ermənistan universitetlərinə mənfi təsir göstərən problemlərin həlli istiqamətində əsaslı bir dəyişiklik edilmədi.

*Aynur ƏZİMZADƏ*
*AMEA-nın Qafqazşünaslıq İnstitutunun Ermənişünaslıq şöbəsinin kiçik elmi işçisi*
*e-mail: ezimzade.aynur@mail.ru*



## "Donqili" spirtli içkinin Təbrizdə törətdiyi humanitar fəlakət - İranda baş verənlərin mümkün kökləri...

***Seyid Camal Əzimbəyli:** "Görünür, hardasa iman və təqvadan ayrı düşməyin nəticəsidir ki, İran cəmiyyətində belə xoşagəlməz hallar yaşanır"*

***"Təbii ki, burada sərt qanunların tətbiqinin acı nəticələri özünü göstərir"***

**Son illər İranda alkoqolizm problemi daha qabarıq şəkildə özünü göstərir. Məlum olduğu kimi, ölkədə spirtli içkilərdən istifadə edilməsi qadağan edilsə də, saxta yolla hazırlanmış bu növ içkilərdən istifadə edənlər durmadan artır. Məsələ ondadır ki, son vaxtlar belə içkilərdən zəhərlənənlərin sayı artır. Rəsmi məlumata görə, bu şəxslərin əksəriyyəti metanol spirtindən, digərləri də kustar üsulla hazırlanan spirtli içkidən zəhərlənir.**

Bu arada İranda spirtli içkilərdən daha 10 nəfər ölüb. Bunu mətbuata açıqlamasında İranın Təbriz Tibb Elmləri Universiteti rektorunun müavini Höccət Purfəthi deyib. Onun sözlərinə görə, iki ay ərzində 240 nəfər spirtli içkilərdən zəhərlənmə nəticəsində Təbrizin Sina xəstəxanasına müraciət edib. Rektor müavini əlavə edib ki, 3 nəfər görmə qabiliyyətini itirib, bir neçə nəfər insult keçirib və reanimasiya şöbəsinə yerləşdirilib: "Təbrizdə spirtli içkilərdən zəhərlənmə nəticəsində xəstəxanaya müraciət edənlərin vəziyyəti ağırdır". Bütövlükdə, İranda spirtli içkilərə marağın artmasını bəzi beynəlxalq qurumlar da qeyd edirlər. Bir müddət əvvəl Ümumdünya Səhiyyə Təşkilatı məlumat yaymışdı ki, İranda hər istifadəçi orta hesabla ildə 25 litrə yaxın spirtli içki qəbul edir. Bu isə Rusiyada, Almaniyada və ya İngiltərədə spirtli içki istifadəçisi olan insanların qəbul etdikləri alkoqolun miqdarından daha çoxdur.

Təxminlərə görə, İranda il ərzində 420 milyon litr spirtli içki istehlak edilir. Rəsmi rəqəmlərə görə, hər il qaçaq yolu ilə İrana 60-80 milyon litr alkoqollu içki gətirilir. Ölkədə istehlak edilən spirtli işkilərin böyük hissəsi gizli şəkildə evlərdə hazırlanır. İranda alkoqollu içkilərin qadağan edilməsinə baxmayaraq, bəzi evlərin zirzəmilərində alkoqollu içkilər istehsal edilir. İran qanunlarına görə, alkoqollu içki istehsal edən, alan və ya satan şəxslər 6 aydan 1 ilə qədər azadlıqdan məhrumetmə və ya 74 qamçı, içənlər isə 80 qamçı cəzası ilə cəzalandırılır.

Bütün hallarda, İran kimi islam qanunları ilə idarə olunan ölkədə spirtli içkiyə olan belə maraq böyük təəccüblə qarşılanır. O baxımdan maraqlıdır, bu ölkədə nə baş verir? Bütün bunlar nədən qaynaqlanır?

**Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, İran cəmiyyətində yaşanan belə sosial problemlər həqiqətən də insanı təəccübləndirir və eyni zamanda narahat edir:** "Əvvəla biz istərdik ki, İran İslam Respublikasında hər zaman sabitlik olsun və islamın gətirdiyi prinsiplər, olduğu kimi, insanlar içərisində öz əksini tapsın. Təbii ki, biz də bir iman, təqva adamı olaraq, müsəlman dünyasının bir parçası olan İranda belə halların baş verməsini təqdir etmirik. Hesab edirəm ki, islamın gətirdiyi qaydalar, təməl prinsipləri insanlar arasında doğru və düzgün aşılandıqda, insanların Qurana və islama bağlılığı daha da möhkəmlənir. Görünür, hardasa iman və təqvadan ayrı düşməyin nəticəsidir ki, İran cəmiyyətində belə xoşagəlməz hallar yaşanır. Bir məqamı qeyd edim ki, Azərbaycan dünyəvi ölkə olsa da, ölkəmizdə milli-mənəvi dəyərlərimiz hər zaman xalq və dövlət tərəfindən mühafizə olunur. O baxımdan hesab edirəm ki, doğrular olduğu kimi aşılanmadıqda, bu, cəmiyyətdə daha böyük fəsadlara yol açır. Hesab edirəm ki, problemin bir kökünü də burada axtarmaq lazımdır. Düşünürəm ki, özünü islam təəssübkeşi kimi tanıtmağa cəhd edən bir ölkədə islamın doğru həqiqətləri, gətirdiyi qaydalar, görünür, daha sərt şəkildə aşılandıqca, islamın həqiqi bütövlüyü və islamın gətirdiyi qaydalar gözlədiyimiz nəticəni vermir. O baxımdan, təbii ki, burada sərt qanunların tətbiqinin acı nəticələri özünü göstərir. Yəni yaşanan problemin kökündə bu amillər də dayanır. Bütün hallarda, düşünürəm ki, bu, cəmiyyətdə ciddi bir sosial problemdir və bu barədə ciddi düşünmək lazımdır".

***Vidadi ORDAHALLI***

**Dövlət səviyyəsində terror siyasəti yürüdən Ermənistan bu gedişlə İŞİD terror qruplaşması üçün də xüsusi diqqət cəlb etməkdədir. Xatırladaq ki, bu günlərdə Rusiya Daxili İşlər Nazirliyinin Ekstremizə qarşı Mübarizə Baş İdarəsinin rəisi Oleq İlyinıx "Ekstremizm və terrorizmlə mübarizədə beynəlxalq əməkdaşlığın prioritetləri" mövzusunda keçirilən beynəlxalq elmi-praktik konfrans çərçivəsində maraqlı məqamlara toxunub.**

# İŞİD Rusiya və Ermənistan arasında yeni nifaq mənbəyinə çevrildi - İŞİD Ermənistanı təsadüfən seçmir...




Qeyd edib ki, Suriya və İraqda məğlubiyyətə uğradıldıqdan sonra İŞİD terror qruplaşması maraqlarını Qazaxıstan, Özbəkistan, Tacikistan, Qırğız Respublikası və Ermənistan ərazisinə doğru hərəkət etdirir. Onun sözlərinə görə, İŞİD terror qruplaşması ümumdünya terror şəbəkəsi yaradılması üzrə planlarını həyata keçirmək istəyir: "Xilafətin Suriya və İraqda strateji məğlubiyyət alması onların maraqlarının Qazaxıstan, Özbəkistan, Tacikistan, Qırğız Respublikası və Ermənistan ərazisinə doğru hərəkət etməsinə gətirib çıxaracaq".

Xatırladaq ki, İŞİD-ə qədər ASALA, PKK və digərləri Ermənistanda özünə yer edə bilib. İndi İŞİD də Ermənistana üz tutmaq niyyətindədir. Düzdür, məsələyə fərqli prizmadan yanaşılır. Məsələn, "Irag-ir.am" portalı bu xüsusda yazır: " Rusiya Daxili İşlər Nazirliyinin Ekstremizə qarşı Mübarizə Baş İdarəsinin rəisi Oleq İlyinıx bildirib ki, İŞİD Suriya və İraqdakı məğlubiyyətdən sonra maraqlarını Qazaxıstan, Tacikistan, Özbəkistan, Qırğızıstan və Ermənsitana yönəldib. İlyinıxın sözlərinə görə, Rusiyada qadağan edilmiş İŞİD qruplaşmasının xadimləri bütün dünya üzrə terror aktları həyata keçirmək bacarığını sərgiləyən ümumdünya terror şəbəkəsi, yatmış özəklər qurmaq planı ilə yaşayırlar. Terrorizmlə mübarizə Ermənistan Milli Təhlükəsizlik Xidmətinin (MTX) əsas prioritetlərindən biridir. MTX-nin uyğun bölmələrinin bu sahədə gündəlik işi terror təhlükəsini birləşdirən istənilən hadisəni üzə çıxarmaq və qabaqlamağa yönəlib. Bu planda Ermənistandakı durum tam nəzarət edilə biləndir. Bu haqda "Armenpress"in sorğusuna cavabında MTX mətbuat xidmətində Rusiya Federasiyası Daxili İşlər Nazirlyi ekstremizmə qarşı fəaliyyət Baş İdarəsinin rəisi Oleq İlyinıxın "İŞİD-in maraqları MDB ölkələrinə - Qazaxıstan, Özbəkistan, Tacikistan, Qırğızıstan və Ermənsitana keçdiyi" haqda bəyanatını şərh edərkən bildiriblər.

MTX-in açıqlamasında deyilir: "Beynəlxalq terror təşkilatlarının başqa ölkələrdəki fəaliyyətinin daimi əsasda diqqətli təhlili aparılır və Ermənistanın təhlükəsizliyinə istənilən təhdid əlaməti üzə çıxan halda qarşısı alınacaq - o cümlədən tərəfdaş xüsusi xidmətlərlə əməkdaşlıqda. Ermənistan MTX beynəlxalq terrorizmlə mübarizə planında bir çox ölkələrin xüsusi xidmətlərilə, o cümlədən MDB Antiterror Mərkəzi formatında fəal işbirliyindədir".

Rusiya DİN-in bəyanatında MDB-nin üzvü olan Azərbaycan yoxdur. Mərkəzi Asiya ölkələrinə gəlincə, bu ölkələrin bəzi vətəndaşları doğrudan da İŞİD-ə qoşulub və onlar Suriya və İraqdakı məğlubiyyətdən sonra "terrorçu zəncir halqası" qurmaqla öz ölkələrinə dönə bilərlər.

Moskvanın İŞİD-də öz "qruplaşması" olubmu? Onların çoxu Rusiyanın Şimali Qafqazından çıxıb, Rusiya hökuməti tərəfindən ələ alınıb və birbaşa Soçi olimpiadasından qabaq Suriya və İraqa göndərilib. Rusiya hökuməti bu faktı boynuna alıb. Bu bildirir ki, həmin şəxslər haqda məlumatlar ona bəllidir. Bu şəxslər hara qayıdacaqlar və siyahıda Azərbaycan niyə yoxdur?

Rusiya DİN-in açıqlaması bu fonda Ermənistanın ünvanına hədə çaları alır. Rusiya müəyyən dövrdən bəri Lazarev komitəsi yaradaraq və Ermənistana qarşı təbliağtı gücləndirərək "yumşaq güc"ün fəal tətbiqinə keçib. DİN-in açıqlaması da bu qəbildəndir.

Ermənistan baş naziri Dağlıq Qarabağda müharibənin təzələnməsi ehtimalını Moskvanın üzərinə qoyaraq bildirib ki, Rusiya istəməsə, müharibə bir də başlamaz. Ola bilsin, MTX-nın döyüşçülər haqda bəyanatında da belə bir eyham var". Beləliklə, Ermənistanın adıçəkilən portalının bu yazdıqlarından bəlli olur ki, İŞİD-in Ermənistana gəlişinə dair Moskvada deyilənlərlə İrəvanda razılaşmaq istəmirlər. Halbuki, bundan əvvəl Ermənistanda İŞİD tərəfdarlarının peyda olması da heç kimə sirr deyil. Məsələn, elə Gümrüdəki 102-ci hərbi bazanın bir rus əsgərinin İŞİD tərəfdarı Arman Cancuğazyan tərəfindən bıçaqlanaraq öldürülməsi halı bunun real təsdiqidir. Digər tərəfdən, Rusiya Suriyada İŞİD-in məhv edilməsindən sonra terrorçuların Rusiyadan intiqam almağa çalışacaqlarını yaxşı bilir. Bu baxımdan rus hərbçiləri Ermənistanda İŞİD terrorçuları üçün olduqca asan hədəf ola bilər. İŞİD-ə sadiq qalan ermənilərin mövcudluğu terrorçuların müəyyənləşdirilməsi və məhv edilməsini daha da çətinləşdirir. Məhz bu səbəbdən Rusiya məsələ ətrafında daha qəti mövqe sərgiləyir. İndi Ermənistan bunu qəbul etmək istəməsə də, İŞİD tədricən bu ölkəyə yaxınlaşır və görünən budur ki, İrəvan sayəsində İŞİD burada yeni mövqe sahibi də ola biləcək.

***Tahir TAĞIYEV***

---

**Martın 31-dən bütün gözlər Türkiyədə keçirilən bələdiyyə seçkilərinə yönəlib. Sosial şəbəkələrdə aparılan müzakirələrdən görünür ki, Azərbaycan vətəndaşları qardaş ölkədəki seçkini böyük maraqla izləyirlər. Seçki günü bu yöndə aparılan polemikalar bunu deməyə əsas verir ki, bu maraq hətta bir çox vətəndaşımızı yatmağa belə qoymayıb.**

# Türkiyə bələdiyyələri - yeni gərginliklər, ya gərginliyə son verən seçki - böyük şəhərlərdə məğlubiyyətin səbəbləri...

***Qabil Hüseynli:** "İstanbul, Ankaranı udan partiya hakimiyyətdə olmasa, hətta parlamentdə əksəriyyət təşkil etməsə belə, ölkədəki proseslərə o yön verir"*




Budəfəki seçkilərdə diqqətçəkən vacib məqamlardan biri hakim partiyanın xüsusilə də Türkiyənin böyük şəhərlərindəki məğlubiyyəti oldu. Gecədən paytaxt Ankarada CHP-nin qalib gəldiyi konkret məlum idi. Həmçinin, İzmirdə müxalifətin qalib gəldiyi mübahisə doğurmurdu. Ancaq Türkiyənin ən böyük şəhəri olan İstanbul uğrundakı mübarizə bir qədər gərgin keçdi. İlk olaraq hakim partiyanın namizədi Binəli Yıldırım prosesləri qabaqlayaraq özünü qalib elan etdi. O bu açıqlamanı verəndə hələ qutuların heç də hamısı açılmamışdı. Proseslərin sonunda isə hakim partiya İstanbulda qalib gəldiyi ilə bağlı verdiyi bəyanatı geri oxumaq məcburiyyətində qalıb: "Hazırkı nəticələrə görə, Əkrəm İmamoğlu məndən 25 min səs qabaqdadır".

Bu isə o deməkdir ki, AKP Ankara ilə yanaşı, İstanbulda da uduza bilər.

Seçkinin ümumi nəticələrini və xüsusilə də hakim partiyanın böyük şəhərlərdəki məğlubiyyətini necə dəyərləndirmək olar?

**Politoloq Qabil Hüseynli qəzetimizə açıqlamasında bildirdi ki, bununla AKP-nin hakimiyyətinə sonun ilk işartıları nəzərə çarpmağa başladı:** "Ümumən seçkilərdə CHP-nin irəliləməsi və xüsusilə də böyük şəhərlərdə qələbə qazanması hakim partiyanın son illər ərzində yürütdüyü yanlış siyasətə bağlıdır. Bu gözlənilən idi. Çünki ölkədə inflyasiya tüğyan edir. İqtisadi artım yerində sayır. Əksər dövlətlər və xüsusilə də qonşu ölkələrlə münasibətlərdə gərginlik var. Ən maraqlısı isə budur ki, Türkiyə üzvü olduğu NATO ilə də yola getmir. ABŞ kimi ənənəvi müttəfiqinə arxa çevirir. Ola bilər ki, siyasətçi üçün bu, səciyyəvi olsun, amma bunun sadə xalqa da təsiri olur. Son bir neçə ildə ətin kilosu 10 dəfə artıb. Bunun müqabilində isə əməkhaqqı və müavinətlər cüzi şəkildə qalxıb. Mənə elə gəlir ki, baş verənlər hələ başlanğıcdır və iflasın yaxınlaşdığını göstərir. Əsl məsələ bundan sonra başlayır. Türkiyə siyasətində bir qayda var ki, İstanbul, Ankaranı udan partiya hakimiyyətdə olmasa, hətta parlamentdə əksəriyyət təşkil etməsə belə, ölkədəki proseslərə o yön verir. Bundan sonra da belə olacaq. Böyük şəhərlərdəki məğlubiyyəti hakim partiya həm də HDP-nin CHP-yə verdiyi dəstəklə izah edir. Mən buna normal baxıram. Çünki siyasətdə belə ittifaqların olması təbiidir. Kürdlərin kompakt yaşadığı rayon və şəhərlərin hamısında HDP qalib gəlib. Böyük şəhərdə yaşayan kürd əsilli vətəndaşlar isə CHP-yə səs verib. Əgər AKP bacarırdısa, HDP-nin elektoratından özü istifadə edərdi".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Paşinyan rastına çıxan jurnalistə görüşün normal keçdiyini deyərək Bristol otelini birinci tərk edib...

**Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həlli üçün Vyanada baş tutan danışıqlar Azərbaycanın məsələ ətrafında mövqeyinin kifayət qədər güclü və tam konstruktiv olduğunu bir daha isbata yetirdi. Xatırladaq ki, məhz Vyanada Azərbaycan və Ermənistan rəhbərlərinin uzun müddətdən sonra ilk rəsmi görüşü keçirilib. Liderlər təkbətək və ATƏT-in Minsk Qrupu həmsədrlərinin iştirakı ilə 3 saata qədər müzakirə aparıblar.**

Görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyev TASS agentliyinə qısa müsahibəsində nəticələr və prosesin bundan sonrakı inkişafına dair mühüm detallar barədə vacib məqamalara toxundu.

Dövlət başçısı bildirib ki, məsələnin mahiyyəti ilə bağlı danışıqlar prosesinə yeni start verilib: "Əsas odur ki, danışıqların formatı dəyişilməz qalıb. Danışıqlar, uzun illər olduğu kimi, Ermənistanla Azərbaycan arasında aparılır. İkincisi, danışıqlar prosesinə yeni təkan verilib…Bizim üçün birinci yerdə beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazilərinin beynəlxalq hüquq, Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsi çərçivəsində işğaldan azad edilməsi məsələsi durur". İlham Əliyevin bu fikirlərindən ortaya çıxan nəticə bir daha göstərir ki, Ermənistanın "Qarabağdakı separatçıları danışıqlara tərəf" kimi daxil etmək və "formatı dəyişmək" cəhdləri tam sıradan çıxıb. Aydındır ki, Ermənistanın "format dəyişikliyi" tezisini müzakirə masasına çıxarmaqla problemin mahiyyətini arxa plana keçirmək və həll prosesini uzatmaq istəyi var idi. Lakin rəsmi Bakının məsələyə müdaxiləsi işğalçı ölkənin bu planının artıq sıradan çıxdığını göstərir. Azərbaycanın Vyanada bir daha Ermənistan üzərində diplomatik uğura imza atmasını İrəvanda da açıq etiraf edirlər. Məsələn, erməni ekspert Karen Bekaryan bildirir ki, faktiki olaraq, Vyana və Sankt Peterburq razılaşmaları yenə Vyanada dəfn edildi. O, görüşdən sonra ortaya çıxan sualların az olmadığını deməklə, onları sadalayıb: "Görüş faktı və həmsədrlərin müsbət bəyanatı alqışa layiqdir. Danışıqlar davam edir, istənilən danışıq daha yaxşıdır, nəinki... Müsbət fikirlər, faktiki olaraq formalaşacaq - formalaşan humanitar məsələlərlə bağlı müsbət proseslər və sair var. Lakin Vyanada, faktiki olaraq, Vyana və Sankt Peterburq razılaşmaları deyilən sənədə birbaşa istinad edilməsi dəfn olundu. Bununla yanaşı ortaya çıxan suallar da az deyil.

1. Paşinyan yalnız Ermənistan adından danışmağa nail oldu? 2. Qarabağın danışıqlar masasına qayıdışı barədə hər hansı söz və ya kəlmə olmadı. 3. Paşinyanın danışıqlar masasındakı mövcud prinsiplərdən və elementlərdən razı qaldığını demək olarmı? Bu məsələ qapalı vəziyyətdə nəzərdən keçirilirmi? 4. Danışıqların nəticəsini Əliyev də Paşinyanın dediyi kimi açıqlayacaqmı? Problemlərin sayını artırmaqa ilkin dəyərləndirmə artıq məlumdur. Azərbaycan istəyinə nail olur və bu məsələdə onu dəstəkləyənlərin də sayı artır".

Respublika Pariyasının sədr müavini Armen Aşotyan isə diqqəti buna yönəldir ki, həmsədrlər və Ermənistan baş naziri administrasiyasının yaydığı bəyanatlar arasında ən azı iki əhəmiyyətli məzmun fərqi var: " Əliyevlə Paşinyan arasında keçirilən görüşə münasibət aşağıdakı kimidir: 1. Qarabağın danışıqlar tərəfi olması barədə Paşinyanın vədinə dair hər hansı bir əlamət yoxdur. 2. Vyana, Sankt-Peterburq və Cenevrə razılaşmalarının yerinə yetirilməsinin zəruriliyi barədə xatırlatma yoxdur. 3. Nizamlama prinsipləri barədə xatırlatma yoxdur. Nizamlama üzrə 3 prinsip və 6 elementin aydınlaşdırılması zərurəti üzrə Xankəndidə Paşinyan tərəfindən verilən vədlər nə oldu, anlaşılan deyil. 4. Əliyev tərəfindən müsbət dəyərləndirmə nə ilə bağlıdır...?".

Burada ekspertlər həm də onu xatırladır ki, hələ Vyana görüşündən əvvəl Minsk Qrupu format dəyişikliyinin əleyhinə ciddi bəyanat verdi. Bu bəyanatdan sonra baş tutan Vyana görüşündə Azərbaycan və Ermənistanın münaqişə tərəfləri olaraq müzakirə aparması da Paşinyanın öz tezisindən imtina etmək məcburiyyətində qaldığını göstərdi.

Beləliklə, Vyana görüşündən sonra bir daha bəlli olur ki, bundan sonra Ermənistan "format dəyişikliyi" tezisini irəli sürə bilməyəcək. Buna cəhd edərsə, ilk olaraq həmsədr ölkələrindən rədd cavabını alacaq və danışıqları pozan tərəf kimi qəbul ediləcək. Digər tərəfdən, İrəvan nəzərə almalıdır ki, elə Vyana görüşü həmsədrlərin və onların timsalında da beynəlxalq ictimaiyyətin qəbul etdiyi 3+2 formatında, yəni Minsk Qrupunun həmsədrləri və Ermənistan-Azərbaycan rəhbərləri arasında baş tutdu. Burada digər çox önəmli məqam da odur ki, artıq Ermənistanın problemin mahiyyətini arxa plana keçirmək niyyətinin də üzərindən xətt çəkilib. Artıq müzakirələr yalnız məsələnin mahiyyəti çərçivəsində həyata keçir ki, bu da ərazilərin qaytarılması və beynəlxalq hüquqa uyğun olaraq Azərbaycanın ərazi bütövlüyünün bərpasını özündə ehtiva edir.

Baş verənləri şərh edən Rusiyanın "regnum.ru" portalı da yazır ki, Azərbaycan Vyanada daha güclü mövqe sahibi olduğunu bir daha nümayiş etdirdi: "Vyananın ən qədim otellərindən birində, "Bristol"da Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan arasında Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə danışıqlar baş tutub. ATƏT Minsk Qrupu sammitin keçirilməsi üçün razılaşma barədə martın başlanğıcında məlumat verib, sonra qabaqkı danışıq gündəliyinin, "Madrid prinsipləri"nin göstərildiyi və Qarabağ separtçılarının danışıqlar prosesinə qatılması haqda İrəvanın qaldırdığı məsələ nəzərə alınmaqla danışıqlar formatının dəyişməkdən imtinanın saxlandığı özəl açıqlama ilə çıxış edib. Vyana danışıqları prosedurca adi diplomatik mərasimlə müşayiət olunub: əvvəlcə ATƏT MQ həmsədrlərinin vasitəçiliyi ilə Qarabağ münaqişəsi tənzimlənməsinin irəliləməsinin müxtəlif çalarlarını, prezident və baş nazir üçün məsələləri müzakirə edən Azərbaycan və Ermənistan xarici işlər nazirləri Elmar Məmmədyarov və Zöhrab Mnatsakanyan görüşüb.

Onların dialoqunun təkbətək formatda üç saatdan çox getməsinə əsasən cürətlə güman etmək olar ki, məzmunu bilinməz qalan gündəlik dolğun olub və ehtimal ki, protokoldan xeyli qırağa çıxıb. Amma tərəflər söhbətin yekunu üzrə mətbuat üçün birgə və ya ayrıca bəyanatdan imtina edib. Paşinyan rastına çıxan jurnalistə "görüşün normal keçdiyi"ni bildirərək, "Bristol" otelini birinci tərk edib. Əliyev də şərhlərdən imtina edərək söz verib ki, "Minsk Qrupu həmsədrləri hər şeyi söyləyəcəklər". Onlar deyiblər ki, Minsk Qrupunun bəyanatı müsbət ruhda saxlanıb. Amma başqa şey də var. Azərbaycan Prezidenti Administrasiyasının xarici siyasət məsələləri üzrə şöbə müdiri Hikmət Hacıyev bildirib ki, Bakı "Dağlıq Qarabağ münaqişəsinin BMT TŞ qətnamələrinə, Helsinki Yekun aktı və beynəlxalq hüquq normalarına uyğun olaraq mövcud format əsasında tənzimlənməsini dəstəkləyir".

Əlbəttə, bu yenilik deyil, amma növbəti dəfə təsdiqləyir ki, durumun müəyyən siyasi-diplomatik özəllikləri gözə dəyir. Birincisi, danışıqlar prosesi analiz və nəticələrin dəyərləndirilməsi baxımından ATƏT Minsk Qrupuna tapşırılıb. İkincisi, danışıqların özünün xarakterinin müxtəlif şərhləri üçün "imkanlar dəhlizi" yaradılıb, daha doğrusu, qalır. Üçüncüsü, sabit duyum yaranır ki, hər iki lider uzun danışıqlar nəticəsində aralıq nəticəyə nail olub və görüş və danışıqları davam etdirəcəklər. Ola bilsin, onlar həlləri intuitiv yoxlayır, danışıqların son nəticəsi kimi hansı öhdəliklərin arzuedilən olduğu haqda ümumi təsəvvür formalaşdırırlar. Amma bu yalnız gümandır.

Sonra nə olacaq? Çox ehtimal, Minsk Qrupu növbəti Əliyev-Paşinyan görüşünə hazırlıq haqda bildirəcək ki, onlar üz-üzə məqbul həll tapmağa çalışsınlar. Hələlik isə Bakı və İrəvan əldə olan kiçik, amma yenə də müsbət diplomatik baqajı kapitallaşdırmağa, yeni danışıqlar gündəliyini və onun yeni məzmununu yaratmağa sarı hərəkətlənməyə borcludur". Bunlarla yanaşı, portal yazır ki, Vyana görüşü ilə Bakı məsələnin sülh müstəvisində həllində maraqlı olduğunu bir daha göstərdi və İrəvan bundan yararlanmağı bacarmalıdır. Əks təqdirdə regionda heç də Ermənistana fayda gətirməyən proseslər başlaya bilər.

Beləliklə, Vyana görüşündən çıxan ümumi nəticə budur ki, Ermənistan diplomatik müstəvidə Azərbaycana masada məğlub oldu və münaqişənin yeganə həlli yolu ölkəmizin ərazi bütövlüyünün təmin edilməsindən keçir. Bu vəziyyətdə işğalçı ölkə Azərbaycanın istədiyi kimi substantiv danışıqlara start verməlidir, əks təqdirdə, münaqişənin çözümünə artıq ordumuzun fəal müdaxiləsi qaçılmaz olacaq.

Cinayətkar aləmin qanunları ilə idarə edilən erməni ordusunun isə Silahlı Qüvvələrimiz qarşısında tab gətirməsi ümumiyyətlə mümkünsüzdür. Elə Avstriyada erməni icması ilə görüşündə Paşinyan özü də bunu etiraf edir və ordularında cinayət qanunlarının hökm sürdüyünü bəyan edir:"Təəssüf ki, cinayət aləmindən ötürülən bu cür münasibətlərə hələ də orduda rast gəlmək olur. Bu bizim ən böyük problemlərimizdən biridir. Təsəvvür edirsiniz, əsgər yoldaşları bir-birilə oturub çörək yeyə bilər və bu zaman elə bir söhbət başlayar ki, biri avtomatı əlinə alıb digərini güllələyir. Artıq bu, özü-özlüyündə orduda böyük bir problemin olduğunu sübut edir". Məhz belə ordunun Azərbaycanın bir həmləsi ilə darmadağın olması qaçılmazdır. Elə ona görə də hesab edilir ki, Paşinyan artıq Qarabağ məsələsində real addımlar atmalıdır. Özü də nəzərə alaq ki, Vyana görüşü münaqişənin həlli ilə bağlı danışıqlara yeni impuls verib və İrəvanın bunu layiqincə qiymətləndirməsi Ermənistanın özü üçün çox önəmlidir. Bakının istəyi isə danışıqlar prosesində konkret və nəticəyönümlü addımların atılmasıdır. Bunun üçün, nəhayət, substantiv danışıqların aparılması reallıqda özünü göstərməlidir. Vyana görüşü bu məsələdə yaxşı başlanğıc sayıla bilər.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Müasir erməni caniləri ilə bağlı ədəbiyyatımızda böyük problem - real cinayətkarlar niyə öz adları ilə göstərilmir...

**Erməni ideoloqlarının və bəzi böyük dövlətlərin fitnəsi ilə başlayan Qarabağ münaqişəsi minlərlə azərbaycanlının kütləvi qətlinə, torpaqlarımızın işğalına səbəb oldu. Xalq olaraq Xocalı soyqırımını, Meşəli, Daşaltı, Ağdaban kimi faciələri yaşamağa məhkum olduq.**

Xocalı genosidini törədənlərə "ilham" verən Zori Balayan, Silva Kaputikyan, bu qətliamı icra edən Serj Sarkisyan, Robert Köçəryan, Seyran Ohanyan və digər cəlladlar bu cinayətlərinə görə hələ də beynəlxalq hüquq tərəfindən cəzalandırılmayıblar.

Xalqımızın düşmənləri olan daşnak törəmələrinin törətdikləri cinayətlərin dünyaya çatdırılması üçün siyasi yazılar, publisistik məqalələr kifayət etmir. Zori Balayan, Silva Kaputikyan, Serj Sarkisyan, Robert Köçəryan, Monte Melkonyan və başqalarının real obrazlarına bədii ədəbiyyatda rast gəlmirik. Müasir Azərbaycan ədəbiyyatında Qarabağ mövzusunda xeyli sayda irili-xırdalı nəsr əsəri yazılsa da, biz bu əsərlərdə yalnız ümumiləşdirilmiş erməni obrazları görürük. Monte Melkonyan istisna olmaqla, adlarını çəkdiyimiz cəlladların, demək olar ki, hamısı həyatdadır və onlar öz müsahibələrində Xocalıda, eləcə də müharibə gedən digər rayon və şəhərlərimizdə uşaqlarımızı, qadınlarımızı, qocalarımızı necə vəhşiliklə qətlə yetirdiklərini "fəxrlə" dilə gətirirlər. Bizim nəsrdə isə hələ heç bir yazıçı özündə hünər tapıb bu neofaşistlərin obrazlarını yaratmağa cəhd göstərmir. Şərti adlar, obrazlar müstəvisində təqdim edilən əsərlərin isə elə də effekti olmur. Bəzən deyirlər ki, tarixi əsərlərin yaradılması zamanla bağlıdır, yəni real obrazların əks olunduğu əsərlərin yazılması üçün xeyli zaman ötməlidir. Əslində, ermənilərin qondarma qəhrəmanlarını bədii əsərlərə gətirməklə onları həm öz cəmiyyətimizdə, həm də beynəlxalq aləmdə bir daha ifşa etmək lazımdır. "Avo" ləqəbli daşnak M.Melkonyanın obrazı nə üçün ədəbiyyatımızda yaradılmasın? Düşmənə qarşı nifrət formalaşdırmaq və ondan öc almaq üçün bu kimi obrazların bədii əsərlərdə canlandırılması vacibdir.

Son 20 ildə Azərbaycan nəsrində yazıçı Sabir Əhmədlinin "Ömür urası", yazıçı Aqil Abbasın "Qaçqın çadırlarında Üzeyir Hacıbəyovlar doğula bilməz" povesti və "Dolu " romanı, Hüseynbala Mirələmovun "Dağlarda atılan güllə", "Xəcalət" romanları, Elçin Hüseynbəylinin "Gözümə gün düşür" hekayəsi və "Əsirlər" povesti, Təranə Vahidin hekayələri, yazıçı Nüşabə Məmmədlinin "Zəngulə" povesti, Fazil Güneyin "Qara qan" romanı, Salatın Əhmədovanın "Kişilik səngəri" əsəri və digər nəsr nümunələri var ki, onlar Qarabağ müharibəsinin ağrılarını, erməni faşizmini, onların törətdikləri vəhşilikləri ifadə edirlər. Bu əsərlərin hər biri bədii cəhətdən çox maraqlı və oxunaqlıdır, lakin onlarda çatışmayan cəhət bu nümunələrdə real obrazların verilməməsidir.

Vətənin köksündə Qarabağ faciəsi boyda yaranı vuran erməni daşnaklarının real obrazları nəsrdə niyə öz əksini tapmayıb?



*Elçin Mirzəbəyli: "... Azərbaycanda nasirlər bu yükün altına girmək istəmirlər"*

*Aydın Xan Əbilov: "Onların obrazları bədii əsərlər vasitəsilə tarixə həkk olunmalıdır ki, xalqımız öz düşmənlərini tanısın və onları unutmasın"*

**Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair Elçin Mirzəbəylinin fikrincə, Zori Balayan, Silva Kaputikyan, Serj Sarkisyan, Robert Köçəryan, Monte Melkonyan və ermənilərin digər "qəhrəmanları"nın real obrazlarının bədii nəsrdə yaradılması vacibdir.** E.Mirzəbəylinin sözlərinə görə, əslində, yazıçılar tarixi faktları, sənədləri araşdırmalı və əli azərbaycanlıların qanına batan şəxslərin obrazlarını ədəbiyyatda canlandırmalıdırlar. "Bədii əsərdə konkret şəxslərin obrazlarının canlandırılması onlar barədə faktların toplanmasını zəruri edir. Tutaq ki, Azərbaycanda hansısa bir yazıçı Zori Balayanın, Silva Kaputikyanın, Serj Sarkisyanın, Robert Köçəryanın obrazını ədəbiyyata gətirəcəksə, o halda əsərdə həmin şəxslərin ətrafında cərəyan edən hadisələrlə, şəxsin özünün prosesdə iştirakı ilə bağlı konkret faktlar öz əksini tapmalıdır. Bu təqdirdə də süjetin qurulması çox çətinləşir. Bu, konkret obrazlar əsasında süjet qurulmasını tələb edən bir məqamdır. Bu baxımdan, Z.Balayanın, S.Kaputikyanın, S.Sarkisyanın, R.Köçəryanın və digərlərinin obrazlarını yaratmaq çətin proses olduğu üçün, təəssüflər olsun ki, Azərbaycanda nasirlər bu yükün altına girmək istəmirlər. Onlar daha asanlaşdırılmış formata - ümumiləşdirilmiş obrazlar yaratmaq formatına qaçırlar. Onu da qeyd edim ki, bütövlükdə, dünya ədəbiyyatında ümumi fərziyyələr əsasında yazılan əsərlər adətən insanları bir o qədər də cəlb etmir. Məsələn, Xocalı faciəsi haqqında bir əsər yazılarsa, bu əsərdə konkret olaraq bir Xocalı ailəsinin faciəsindən çıxış edərək nələrisə dünyaya çatdırmaq daha doğrudur. Bu diqqəti daha çox cəlb edə bilər. Xocalıdan olan bir uşağın faciəsini, onun obrazını, keçdiyi yolu, eyni zamanda, bu faciənin törənməsində iştirakı olan Sarkisyanın, Köçəryanın obrazını yaratmaq daha böyük peşəkarlıq tələb edən bir məsələdir. Ola bilsin, bizim ədəbiyyat adamları, bir növ, tarixi proseslər haqqında yazmağı öz üzərlərinə götürməkdən çəkinirlər. Burada bir az xronikaya müraciət etmək lazım gəlir. Tarixi faktlar araşdırıb dəqiqliklə ortaya qoymaq, tarixi faktlar əsasında bədii obrazlar yaratmaq çox mürəkkəb bir prosesdir" - deyə bildirən E.Mirzəbəyli qeyd etdi ki, bizim yazıçılar adətən uzaq tariximizlə bağlı əsərlər yazmağa meyl göstərirlər, yaxın tarixə isə əsasən müraciət etmək istəmirlər. E.Mirzəbəylinin sözlərinə görə, üzərindən kifayət qədər zaman keçməsinə baxmayaraq, heç 20 Yanvar faciəsi haqqında bir əsər, film ortaya qoymağı bacarmamışıq. "Bu əsərləri yazmaq üçün ciddi araşdırma aparmaq lazımdır. Həmçinin də yazıçının bir az analitik təfəkkürü olmalıdır. Şərq ədəbiyyatından gəlmə mübaliğələri, uzun-uzadı cümlələri kənara qoymaq lazımdır, dünya artıq bu tərzi qəbul etmir. Reallığı və real mənzərəni yaratmaq üçün daha peşəkar yanaşmaq lazımdır" - deyə E.Mirzəbəyli qeyd etdi.

**Yeni Sənətçilər və Yazarlar Birliyinin sədri, yazıçı-kulturoloq Aydın Xan Əbilovun fikrincə isə bu günədək Qarabağ mövzusunda əsərlər yaradılıb, "Qarabağnamələr" hər zaman olub.** "Ancaq onların böyük bir hissəsinin bədii səviyyəsi, bir hissəsinin isə forması, yaxud zəif yazılması ədəbiyyatımızın "Qarabağnamə" istiqamətinin heç də ürəyimizcə olmadığını göstərir. Onu da bildirim ki, müxtəlif yazıçılarımız tərəfindən Dağlıq Qarabağ münaqişəsi, eləcə də 20 Yanvar hadisəsi ilə bağlı yüzlərlə bədii əsər yazılıb. Xüsusən də poeziya və publisistika janrında daha çox əsər var. Lakin onlarda keçmiş sovet dövründə yazılan əsərlərdəki kimi, mənfi və müsbət qəhrəmanların surətləri istənilən sənətkarlıq səviyyəsində yazılmır deyə, oxucuların da yaddaşında qalmır. Bu nəinki bədii ədəbiyyatda, hətta filmlərdə, seriallarda və televiziya proqramlarında da belədir".

A.X.Əbilov hesab edir ki, bu şəxslərin obrazlarının ədəbiyyatda yaradılmamasının əsas səbəblərindən biri bu istiqamətdə yazılan çoxsaylı məqalə, publisistik yazılar, çəkilən televiziya proqramlarıdır ki, bu da bədii nəsrin bu məsələyə səthi yanaşmasına gətirib çıxarıb. Bədii ədəbiyyatda tarixi, mədəni hadisələrin ümumiləşdirilmiş formada verildiyini deyən müsahibimiz qeyd etdi ki, burada hansısa bir obrazın tam canlandırılmasına maraq olmur. "Biz bu barədə yazıçılardan soruşanda onlar deyirlər ki, ümumiləşdirilmiş obrazlarda erməni xislətini, onların vəhşiliklərini veririk. Deyirlər ki, bu əsərləri tarixi faktlarla yazsaq, onda bu bədii yox, sənədli-bədii əsər olacaq. Razıyam ki, Qarabağın işğalında yaxından iştirakı olan, azərbaycanlılara qarşı soyqırım törədən, hamilə qadınlarımızı, uşaqlarımızı xəncərlə doğrayan, yandıran "erməni qəhrəmanları"nın adları və soyadları açıq olmaq şərtilə, obrazları böyük sənətkarlıqla bədii nəsrdə öz əksini tapmalıdır. Onların obrazları bədii əsərlər vasitəsilə tarixə həkk olunmalıdır ki, xalqımız öz düşmənlərini tanısın və onları unutmasın" - deyə müsahibimiz vurğuladı.

***İradə SARIYEVA***

**Azərbaycan xalqının son 100-150 ildə məruz qaldığı soyqırım aktları haqqında indiyə qədər bədii filmlərin çəkilməməsi həqiqətən də təəssüf doğurur. Erməni faşistlərinin, daşnaklarının xalqımıza qarşı həyata keçirdikləri genosid nəticəsində şəhid olan yüzlərlə günahsız qurbanların taleyi hələ də bədii filmlərdə ifadə olunmayıb.**

# Azərbaycanlıların ermənilər tərəfindən soyqırımına aid hələ bir bədii film çəkilməyib...





***Qasım Hacıyev:** "... hər birimizi ciddi narahat etməlidir"*

***Aydın Kazımzadə:** "Ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırım hadisələri ilə bağlı bədii filmlərin çəkilməməsi təəssüf doğurur"*

Qarabağ müharibəsi haqqında bir neçə film istehsal edilsə də, onların sırasında soyqırıma həsr edilən filmlər yer almır. Halbuki, ermənilər qondarma erməni soyqırımı ilə bağlı həm sovet dönəmində, həm də müasir dövrdə saysız film çəkərək həmin filmləri bütün dünyada nümayiş etdiriblər. Bu azmış kimi, bu mövzuda çəkilən filmlərə xarici kinorejissor və prodüsserləri də cəlb edirlər. Bu gün dünyada qondarma erməni soyqırımının tanıdılması istiqamətində görülən işlərə bu sahədə çəkilən bədii filmlər başçılıq edir. Başqa xalqa qarşı genosid törədən bir toplumun öz əməllərini başqa xalqların ayağına yazmaq məqsədilə "erməni soyqırımı" haqqında bədii filmlər çəkməsi və onları təbliğ etməsi faktdır.

Azərbaycanda isə, bildirdiyimiz kimi, hələ də soyqırımlar tarixini əks etdirən sanballı bədii film çəkilməyib. Ən çox genosidə məruz qalan xalq olduğumuz halda, bizim bu mövzuda bədii filmlərimiz yoxdur. Doğrudur, sənədli film sahəsində xeyli iş görülüb, bu da lazımdır, ancaq bədii filmlərin çəkilməsi daha əhəmiyyətlidir.

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev bizimlə söhbətində bildirdi ki, Azərbaycanda ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımlar haqqında bədii filmlərin çəkilməməsi təəssüf doğurur.** Q.Hacıyev qeyd etdi ki, bu gün Azərbaycan kinematoqraflarının soyqırımlar tarixi haqqında bədii filmlər çəkmək imkanları genişdir. O hesab edir ki, biz bu filmləri çəkməklə həm 31 mart azərbaycanlıların soyqırımını, həm Xocalı genosidini, həm Quba faciəsini, eləcə də digər hadisələri dünyada tanıtmaq istiqamətində böyük işlər görmüş olarıq. "Azərbaycanda hələ də soyqırımlar tariximizlə bağlı bədii filmlərin çəkilməməsi hər birimizi ciddi narahat etməlidir. Ayrı-ayrı epizodları nəzərə almasaq, deyərdim ki, bu sahədə köklü işlər görülməyib. Əslində isə biz bu sahədə çoxlu film çəkməliyik. Bunun üçün əlimizdə kifayət qədər material, arxiv sənədləri var. Soyqırımla bağlı bədii filmlər çəkərək həmin filmləri bütün dünyada yaymalıyıq. Hətta deyərdim ki, həmin filmlərin istehsalına xaricdən, İrandan, Türkiyədən, Rusiyadan mütəxəssislər də cəlb etməliyik. Erməni daşnaklarının xalqımızı tarixdə bir neçə dəfə soyqırıma məruz qoyduğu haqqında bədii filmlər çəkilməlidir. Məlumdur ki, ermənilər tarixdə baş verməyən bir hadisə uyduraraq ona çoxlu film həsr ediblər. Rusiyada yaşayan Boravik soyadlı rejissor hələ sovet dövründə 1915-ci il yalançı erməni soyqırımı haqqında bədii film çəkmişdi və həmin film Moskvada nümayiş olunurdu. Belə nümunələr saysız-hesabsızdır. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımlar haqqında bədii filmlər çəkilməlidir ki, biz bu yolla da öz həqiqətimizi dünyaya yayaq" - deyə Q.Hacıyev vurğuladı.

**Əməkdar incəsənət xadimi, tanınmış kinoşünas Aydın Kazımzadənin sözlərinə görə də ermənilər qondarma erməni soyqırımı haqqında hələ sovet dövründən etibarən filmlər çəkməyə başlayıblar, bizdə isə həqiqi soyqırımımızla bağlı filmlər çəkilməyib.** "Ermənilər hələ sovet dövründə sovetin pulu ilə qondarma erməni soyqırımı barədə bədii filmlər çəkməyə başlayıblar. Sovet dövründə sovet puluna ermənilər qondarma erməni soyqırımı ilə bağlı 1960-cı ildən 1990-cı ilə qədər 9 bədii, 1 animasiya, 1 bədii-sənədi film çəkiblər. Eyni zamanda da 3 sənədli film ekranlaşdırıblar. Erməni şovinistlərinin təbliğat maşını bu günə qədər işləyir. Əgər bu filmlərin xeyli bir hissəsi sovet dövründə istehsal olunubsa, görün, indi onlar xarici ölkə tamaşaçılarına uydurma soyqırımlarını tanıtdırmaq üçün nə qədər işlər görürlər. Ermənilərin 1915-ci il qondarma erməni soyqırımından bəhs edən "Yaşamaq üçün doğulmuşlar", "Zuri miro", "Naqaped" "Qaçqınlar" filmlərini, "Nar ağaclığı" animasiya və s. filmləri də həmin mövzuya həsr olunub. Demək istəyirəm ki, ermənilər bu sahədə çox işlər görüblər və görməkdə də davam edirlər. Bizdə isə sovet dövründə belə filmlər çəkməyə icazə verilməyib. 1989-cu ildən üzü bəri çəkilən filmlərin sırasında da azərbaycanlıların soyqırımı ilə bağlı bədii film yoxdur. Bu dövrdə "Azərbaycanfilm"də "Hücum", "Tələ", "Fəryad", "Ağ atlı oğlan", "Ümid", "Hər şey yaxşılığa doğru", "Ailə" kimi filmlər çəkilib, bu filmlər Qarabağ problemi ilə bağlıdır. Ancaq onların sırasında soyqırıma aid filmlər yoxdur. Ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırım hadisələri ilə bağlı bədii filmlərin çəkilməməsi təəssüf doğurur" - deyə A.Kazımzadə qeyd etdi.

***İradə SARIYEVA***

---

**Azərbaycan musiqisinin böyük tarixi köklərə malik olması şəksizdir. Aşıq musiqisindən və muğamdan rişələnən bəstəkar musiqiləri insanların bədii estetik zövqünün formalaşmasında əvəzsiz rol oynayır. Yaşlı və orta nəsil bəstəkarları musiqimizin tarixi köklərinə söykənib mahnılar yazsalar da, son dövrlər meydana çıxan bəstəkarlar daha çox bizə yad olan ritmlərə maraq göstərirlər.**

# Bəstəkarlarımızın musiqi yaradıcılığında hind ritmləri milli elementləri sürətlə əvəzləməyə başlayıb...



*"Onlar belə hesab edirlər ki, hind, fars, ərəbdən ritm götürüb onu meydana çıxaranda kütlə bu musiqinin köklərinin haradan qaynaqlandığını bilməyəcək"*

***Zəka Vilayətoğlu:** "Bəzi müasir bəstəkarların böyük tarixi ənənəsi olan Azərbaycan musiqisinin köklərindən uzaqlaşması..."*

Müasir dövrümüzdə efirlərdə, eləcə də toylarda səsləndirilən musiqilərin böyük əksəriyyəti hind musiqisi ritmindədir. Bəzi bəstəkarlar öz musiqimizin ritmində mahnılar yazmaq əvəzinə, müxtəlif hind filmləri üçün yazılan populyar mahnıları oranjeman edərək, "bu mənim yeni mahnımdır" deyə onu təqdim edirlər. Peşəkar musiqiçilər isə sözsüz ki, onların "yeni mahnıları"nı ciddi tənqid edirlər, lakin onların tənqidi ünvanına çatmır. Reallıq budur ki, müasir musiqi nümunələrinin yaranmasında hind, fars və ərəb ritmləri üstünlük təşkil edir.

**Tanınmış bəstəkar, müğənni Zəka Vilayətoğlu bizimlə söhbətində təəssüflə bildirdi ki, müasir Azərbaycan musiqisində yad ritmlər, xüsusən də hind, fars ritmləri üstünlük təşkil edir.** Musiqiçinin sözlərinə görə, bəzi müasir bəstəkarlar milli musiqi köklərimizdən uzaqlaşaraq yad ritmlərə meyl edirlər. Müxtəlif hind filmlərinin populyar musiqilərini oranjeman edərək onları "öz mahnıları" kimi təqdim edənlərin olduğunu deyən Z.Vilayətoğlu bildirdi ki, onlar bununla həm öz musiqimizə zərbə vurur, həm də dinləyicilərin zövqünü korlayırlar. "Təəssüf ki, bizdə belə bir psixologiya var, öz musiqimizi bəyənmirik və yad ritmlərə meyl edirik. Bu gün Azərbaycan musiqisinin tarixi köklərindən uzaqlaşıb başqa xalqlara məxsus musiqini "yeni əsər" kimi təqdim edənlər az deyil. Bəziləri öz musiqimizi yad sayır, onu qəbul etmək istəmirlər. Deyirlər ki, xarici ritmlər daha yaxşıdır. Bu gün Azərbaycan musiqisində plagiatlıq halları mövcuddur. Onlar belə hesab edirlər ki, hind, fars, ərəbdən ritm götürüb onu meydana çıxaranda kütlə bu musiqinin köklərinin haradan qaynaqlandığını bilməyəcək. Bu cür oğurluqla məşğul olanlar var. Anlayışı olmayanlar ola bilsin ki, o musiqini "milli" musiqi hesab edirlər, lakin peşəkarlar dərhal onun mənbəyini bilirlər. Plagiatlıq təkcə indi mövcud deyil ki, əvvəllər də olub. Məsələn, elə populyar mahnılar var ki, biz onları illərlə öz musiqimiz kimi qəbul etmişik, ancaq indi görürsən, o musiqinin kökü farsa, hində gedib çıxır. Belə örnəklər var. Hind və fars ritmini dərhal hiss etmək olar. Son dövrlər bayağı musiqilərə meyl güclənib. Bəzi bəstəkarlar hesab edirlər ki, keçilmiş cığırla getmək daha asandır və onlar milli musiqi ritmlərindən bəhrələnmək istəmirlər. Bu gün Azərbaycanda peşəkar musiqiçilər özləri kənarda qalıb, bu cür yad ritmdə gündəmə gətirilən musiqilər meydanı ələ alıb. Kütlə artıq bu cür ritmlərə meyl etdiyindən, peşəkarlar da bu mənzərəni ürək ağrısı ilə seyr edirlər, başqa əlacları da yoxdur. İrad bildirsələr də, onların harayı, ünü heç kəsə çatmır. Çünki bu qondarma mahnıların reklamının daha çox olması onların səsinin qarşısını kəsir. Efirlər də, toylar da əsasən belələrinin ixtiyarındadır" - deyə Z.Vilayətoğlu qeyd etdi.

O bildirdi ki, bu gün aşıq musiqisindən və muğamdan bəhrələnərək əsər yaradanlar çox azdır. Onun sözlərinə görə, Azərbaycan musiqi tarixində izləri qalan görkəmli bəstəkarların, demək olar ki, hamısı aşıq musiqisindən və muğamdan bəhrələnərək gözəl əsərlər yaradıblar. Müasir bəstəkarların yad ritmlərdən uzaq olmalı olduğunu deyən Z.Vilayətoğlu hesab edir ki, yad ritmlərin musiqimizə təcavüz etməsi nəticəsində həm musiqimiz uduzur, həm də tamaşaçılar və dinləyicilər çox şey itirir: "Bəzi müasir bəstəkarların böyük tarixi ənənəsi olan Azərbaycan musiqisinin köklərindən uzaqlaşması, bayağı, yad ritmlərə meyl etməsi, konkret olaraq hind, fars ritmlərindən bəhrələnməsi düzgün deyil. Bizim aşıq musiqisi, muğam kimi tükənməz xəzinəmiz var, onlardan bəhrələnərək gözəl əsərlər yaratmaq daha doğru olardı. Belə zəngin musiqisi olan bir xalqın nümayəndələrinin başqa musiqi ritmlərinə ehtiyacı yoxdur. Biz musiqiçilər kütləni öz arxamızca aparmalıyıq, onların arxasınca getməməliyik. Üzeyir Hacıbəyov başda olmaqla, bizim bütün böyük bəstəkarlarımızın hamısı xalq musiqisindən bəhrələniblər. Müasir nəsil bəstəkarlar da həm toylar, həm də efirlər üçün səviyyəli mahnılar yazmalıdırlar".

***İradə SARIYEVA***

**Bir neçə gündür ki, sosial şəbəkələrdə yayılan "Kazbekə şey basım fırranım" adlı mahnı ətrafında ciddi müzakirələr aparılır. Araşdırdıqda məlum olub ki, həmin mahnı heç də yaxşı tanınmayan bir gənc tərəfindən xeyli müddət əvvəl ifa edilib və "youtube" portalına yerləşdirilib.**

# Sumqayıtlı Vüqar Səda "Kazbek"ə şey basıb sonadək fırrana" bilmədi - dəyərlərimizə meydan oxuyanları bu dəfə də Ramil Usubov zərərsizləşdirdi




Azərbaycanda keçirilən hansısa toyda xanımların məhz bu mahnının sədaları altında şıdırğı rəqs etməsi ilə bağlı görüntülər sosial mediada yayılandan sonra bu mövzu ətrafında ictimai müzakirələr daha da qızışdı. Artıq vəziyyət o həddə çatıb ki, bəzi millət vəkilləri bununla bağlı hüquq-mühafizə orqanlarına şikayət etmək məcburiyyətində qalıblar.

Milli Məclisin üzvü Fazil Mustafa öz Facebook hesabında yazıb ki, bununla bağlı daxili İşlər naziri, general-polkovnik Ramil Usubova müraciət edib. Deputatın müraciətini olduğu kimi təqdim edirik:

"Hörmətli Ramil müəllim!

Son günlər sosial şəbəkələrdə "Kazbekə şey basım fırranım" adı ilə vidioçəkiliş formasında paylaşılan "mahnı" yayılmaqdadır. İfa edilən "mahnı"nın sözlərində bəşəriyyətin ən böyük bəlası olan narkomaniyaya açıq şəkildə çağırış edilir, onun yayılması təbliğ olunur. Bu çağırışın əsas hədəfi olaraq Azərbaycan auditoriyasının seçilməsi hansısa qüvvələrin ölkəmizdə bu bəlanın yayılmasında ciddi maraqlarından xəbər verir. Bu üzdəniraq "mahnı" artıq orta və ali məktəblərdə, çox sayda gənclərin arasında məqsədyönlü şəkildə sürətlə yayılmaqdadır. "Mahnı" adı ilə bu biabırçılıq və rüsvayçılığı yazdıranlar, ifa edənlər, videoya çəkilənlər və onu yayanlar kütləvi şəkildə cinayət əməli törətməklə cəmiyyətin, xüsusilə də gənc nəslin təlim-tərbiyəsinə və sağlamlığına sarsıdıcı zərbə vururlar. Bu çəkilişlərə azyaşlı uşaqların və gənc qızların cəlb olunması isə cəmiyyətdə xüsusi narahatçılıq doğurur.

Ümid edirəm ki, narkomaniyaya qarşı mübarizəyə hər zaman yüksək diqqət yetirən bir səlahiyyətli dövlət xadimi kimi tərəfinizdən qanunlara və əxlaqi dəyərlərə açıq şəkildə meydan oxuyan və onu heçə sayaraq bu zərərli təbliğatla məşğul olanların şəxsiyyətlərini araşdırmaq istiqamətində təcili tədbirlər görüləcək və bu zərərli təbliğatı gerçəkləşdirən şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə məsuliyyətə cəlb olunması təmin ediləcəkdir. Görüləcək tədbirlərin tərbiyəvi əhəmiyyətini nəzərə alaraq nəticəsi barədə geniş ictimaiyyətə məlumat verilməsini də Sizdən xahiş edirəm".

Digər millət vəkli Qənirə Paşayeva da həmkarına dəstək verib. Xanım deputat öz səhifəsində bunları yazıb:

"Bu nə dəhşətdi İlahi? Bu adamlar gerçəkdən nə oxuduqlarının, nəyə oynadıqlarının, bu hərəkətləri ilə nəyi təbliğ etdiklərinin fərqində deyillərmi? Həmkarım Fazil Mustafanın Daxili işlər naziri və Baş prokurora bu mahnı, bu videolarla bağlı müraciətini tamamilə dəstəkləyirəm və qoşuluram. Mən də bununla bağlı rəsmi qurumlara müraciət edəcəm. Bu videoların uşaqlar və yeniyetmələr üçün nə qədər zərərli bir təbliğat olmasının görəsən bu videolara çəkilən, çəkən və yayan adamlar, onların ailəsi, yaxınları gerçəkdən fərqində deyillərmi? Çox düşündürücü və narahatedici bir məsələdir. Çox üzüldüm, üzüntü və ciddi narahatlıqla izlədim. Təəssüf... Amma bu cür videolara, narkomaniyanı təbliğ edənlərə qarşı ciddi addımlar atılmalıdır. Tədbirlər görülməlidir. Çox təəssüf... Böyüyən uşaqlarımızı düşünün bu addımı atmazdan əvvəl. Üzüntüvericidir. Tezliklə yığışdırılması lazımdır bu videoların".

Göründüyü kimi, məlum videonun geniş yayılması hətta norkomaniyanın təbliği kimi yozulur. Azərbaycan qanunvericiliyi belə mahnının qarşısını almağa imkan verirmi?

Hüquqşunas Meham Muradlı qəzetimizə bildirdi ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 236-cı maddəsinin dispoziyasında narkotik vasitələrinin istehlakına təhrik etmə cinayət hesab edilir. Əgər son dövrlər məlum mahnının sözlərini nəzərə alsaq, burada təhrikdən söhbət gedə bilməz. Bu mahnının sözlərini narkotik vasitələrinin reklamı hesab etmək olar. Təhrik etmə deyəndə konkret subyekt olmalıdı. Amma bildiyim qədəri ilə bununla bağlı zərərçəkmiş qismində kiminsə hüquq-mühafizə orqanlarına müraciəti olmayıb.

Mahnını ifa edən şəxslərlə profilaktik söhbət etmək olar, amma onların məsuliyyətə cəlb edilməsinə qanunvericilik imkan vermir. Həmin iafaçı barəsində sərt hüquqi ölçülərin götürülməsinə beynəlxalq reaksiya da mənfi ola bilər. Bu cür məsələlər bir qədər həssas yanaşma tələb edir. Bir daha qeyd edirəm ki, ifaçının əməlində cinayət tərkibi də yoxdu. Onu sadəcə, ictimai qınağa məruz qoymaq olar".

Yazı hazırlanarkən məlum oldu ki, sözügedən mahnının ifaçısı polis tərəfindən saxlanıb. Daxili İşlər Nazirliyindən verilən məlumata görə, nazirliyin rəhbərliyinin tapşırığına əsasən bununla əlaqədar müvafiq tədbirlər həyata keçirilib:" Nəticədə dediyi meyxana ilə narkotiki təbliğ edənin Sumqayıt şəhər sakini "Vüqar Səda" ləqəbli Vüqar Abdullayev olması müəyyən edilib və o, Sumqayıt ŞPİ-nin əməkdaşları tərəfindən saxlanıb.

Onun üzərində aparılmış şəxsi axtarış zamanı "Belamorkanal" papirosuna doldurulmuş və istifadə edilməsi üçün hazırlanmış marixuana aşkar edilib.

Müəyyən olunub ki, V.Abdullayev narkotik istifadəçisidir. İlkin dindirmə zamanı o, həmin videonun bir neçə il əvvəl çəkildiyini, bu hərəkətlərinə görə peşman olduğunu və bir daha belə hallara yol verməyəcəyini bildirib. Faktla əlaqədar toplanmış materiallar hüquqi qiymət verilməsi üçün şəhər məhkəməsinə göndəriləcək".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Məlum olduğu kimi, martın 31-də sosial şəbəkələrdə üç gənc qadının çılpaq vəziyyətdə rəqs etməsini əks etdirən görüntülər yayılıb. O cümlədən, bəzi internet saytları bir qrup şəxsin sərxoş vəziyyətdə əxlaqsızlığı təbliğ edən və cəmiyyətdə mövcud olan etik davranış qaydalarına zidd hərəkətlərini özündə əks etdirən videogörüntünü yayıb.**

# Bakı villasında çılpaq qızları oynadan əxlaqsız videonu saxta "aypi" xatirinə bol-bol tirajlayan saytlar MŞ-nın hədəfində...

## *Şəmsəddin Əliyev: "Yaxın vaxtlarda Mətbuat Şurasının İdarə Heyətində sözügedən məsələ müzakirə ediləcək"*




*"Belə hallara bir daha yol veriləcəksə, o zaman sözügedən saytların bağlanması, bloklanması və..."*

Sözügedən görüntülər cəmiyyətdə böyük rezonansa səbəb olub. Eyni zamanda, cəmiyyətin müxtəlif təbəqələri tərəfindən narazılıqla qarşılanıb.

Sözügedən məsələ ilə əlaqədar Daxili İşlər Nazirliyi müvafiq tədbirlər görüb. DİN-in keçirdiyi əməliyyat tədbirləri nəticəsində həmin görüntülərdə əks olunan 2 kişinin və 3 qadının şəxsiyyətləri müəyyən edilib və onlar saxlanaraq Nəsimi Rayon Polis İdarəsinə gətiriliblər. Araşdırmalar zamanı məlum olub ki, sözügedən eyş-işrət məclisi paytaxtdan kənardakı bağ evlərindən birində, Bakı şəhər sakini Valeh İsrafilov və Rusiya vətəndaşı, əvvəllər məhkum olunmuş Cahid Kərimov tərəfindən təşkil olunub. Orada iştirak edən 3 qadının da görüntüləri məhz C.Kərimov tərəfindən çəkilərək sosial şəbəkədə yayımlanıb.

Görünən odur ki, sözügedən məsələdə DİN üzərinə düşən işi görüb. Yəni bu əxlaqsız hərəkətə yol verənlər məsuliyyətə cəlb ediliblər.

Ancaq məsələnin digər tərəfi də var. O da ondan ibarətdir ki, bəzi internet saytları məsələnin əxlaqi tərəfini nəzərə almayaraq görüntüləri necə var elə də tirajlayıblar. Aypi toplamaq xatirinə sözügedən görüntülərin geniş formada yayılması cəmiyyətin, xüsusən də gənclərin əxlaqına, mənəviyyatına, tərbiyəsinə mənfi təsir göstərir, bir sıra xoşagəlməz fəsadların yaranmasına zəmin yaradır. Təəccüb doğuran məqamlardan biri də odur ki, az-çox tanınan bəzi saytlar belə, sözügedən görüntüləri yayıblar.

O baxımdan maraqlıdır, sözügedən görüntüləri yayan internet saytları ilə bağlı Mətbuat Şurasında müzakirələr aparılacaqmı? Həmin saytlarla bağlı hər hansı tədbirlər görüləcəkmi?

**Sözügedən məsələyə aydınlıq gətirən Mətbuat Şurasının icraçı katibi Şəmsəddin Əliyev bunu istisna etmədi.** Onun fikrincə, bununla bağlı müzakirələr olacaq: "Əvvəla sözügedən görüntülərin yayılması cəmiyyətdə birmənalı qarşılanmadı. Sağlam düşüncəli insanları bu, haqlı olaraq hiddətləndirdi. Əslində yaşananlar ictimai mənəviyyat əleyhinə olan bir addımdır. Təbii ki, hər bir Azərbaycan vətəndaşı ictimai mənəviyyatı pozan bu cür görüntülərin çəkilməsinin, yayılmasının əleyhinə olmalıdır. Çünki mənəviyyat, əxlaq, ədəb, bütün bunların hamısı Azərbaycanın milli ideologiyasının ana xəttini təşkil edir. O üzdən, Mətbuat Şurası bu kimi məsələlərə həssas yanaşır. Qurum hesab edir ki, KİV obyektivliyi özünün peşəkarlıq meyarı kimi qəbul etməlidir. Düşünürəm ki, bu məsələdə jurnalistlər peşədavranış qaydalarına əməl etməlidirlər. Bu baxımdan, sözügedən görüntülərin yayılması cəmiyyətin əxlaqına ziddir. Yaxın vaxtlarda Mətbuat Şurasının İdarə Heyətində sözügedən məsələ müzakirə ediləcək. Həmin videogörüntüləri yayan xəbər portalları ictimai qınağa cəlb ediləcək.

Çünki belə hallara yol verilməsi xoşagəlməzdir. Biz həmin saytları məzəmmət edəcəyik ki, bu cür xoşagəlməz hallara bir də yol verməsinlər. Belə hallara bir daha yol veriləcəksə, o zaman sözügedən saytların bağlanması, bloklanması və bu işin məhkəmə yolu ilə həlli ilə bağlı müvafiq hüquqi addımlar atılacaq".

***Vidadi ORDAHALLI***

Azərbaycanda ümumtəhsil müəssisəsində təhsilalanlar üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş vahid geyim forması tətbiq edilə bilər. Məsələ Milli Məclisin plenar iclasında müzakirəyə çıxarılan yeni hazırlanmış "Ümumi təhsil haqqında" qanun layihəsində öz əksini tapıb.

# Vahid məktəbli forması rəsmiləşir - Məktəblərin və valideynlərin canı hansı problemlərdən qurtardı...



*"...təhsilin keyfiyyətinə müsbət təsir göstərməklə bərabər, həm də nizam-intizamın yaxşılaşmasına gətirib çıxarır"*

*Aytəkin Kamranqızı: "Respublika üzrə vahid məktəbli geyiminin tətbiq olunması valideynlərlə yanaşı, müəllim heyətinin də rahatlığına səbəb olacaq"*

Məlumat üçün bildirək ki, ölkəmizin ümumtəhsil məktəblərində şagirdlər üçün vahid formada məktəbli geyiminin tətbiqi prosesi 2009-cu dərs ilində yekunlaşıb. Artıq, demək olar ki, bütün məktəblilərin qarderobunda məktəbli forması var və bu geyimin tərzi, duruşu məsələsi şagirdlərin, onların valideynlərinin qayğılarından birinə çevrilib.

Bəllidir ki, bu gün məktəblilər üçün vahid geyim əsasən paytaxt məktəblərində tətbiq olunur. Özəl məktəblərin isə özünün fərdi məktəbli forması olur. Ancaq bölgə məktəblərində təhsil alanlar vahid məktəbli geyimində deyil, sərbəst şəkildə dərsə gedirdilər. Yeni qəbul olunacaq qanun layihəsində tək paytaxt məktəbləri deyil, bütün ölkə üzrə vahid məktəbli forması tətbiq olunacaq. Beləliklə, həm valideynlər ağ köynək, qara şalvar və ya ətək almaq sıxıntısından azad olunacaq, eyni zamanda, məktəblərdə də şagirdlər arasında fərqlilik yaşanmayacaq.

**Məsələ ilə bağlı fikir bildirən sosioloq Aytəkin Kamranqızı bizimlə söhbətində qeyd etdi ki, respublikada vahid məktəbli forması tətbiq olunarsa yaxşı olar:** "Bəllidir ki, bu gün əsasən paytaxt və digər şəhərlərdə vahid məktəbli forması geyinilir. Ancaq bölgələrdə, ucqar kəndlərdə isə valideyn hər tədris ilinin başlanğıcında övladı üçün geyim almaq sıxıntısı ilə üz-üzə qalır. Belə olan halda, məktəblilər arasında ayrıseçkilik yaşanır. Bu kimi xoşagəlməz vəziyyətin yaşanmaması üçün vahid məktəbli formasının tətbiq olunması vacibdir".

Həmsöhbətimiz onu da vurğuladı ki, respublika üzrə vahid məktəbli geyiminin tətbiq olunması valideynlərlə yanaşı, müəllim heyətinin də rahatlığına səbəb olacaq: "Etiraf etməliyəm ki, bu, təhsilin keyfiyyətinə müsbət təsir göstərməklə bərabər, həm də nizam-intizamın yaxşılaşmasına gətirib çıxarır. Bir məqamı xüsusi qeyd edim ki, hər bir məktəbin pedaqoji şurası öncədən müəyyən olunan dizayn və məktəbli formalarının etiketlərini məktəb kollektivi ilə müzakirəyə çıxarır. Məktəb üçün uyğun hesab olunan dizaynda qəbul edilən məktəbli forması həmin tədris ili üçün vahid forma kimi qəbul edilir.

Onu da deyim ki, hazırda bəzi məktəblərin özünün geyim forması var. Hətta yolda şagirdlərə rast gələndə geyimlərinə görə ayrı-ayrı məktəblərdən olduqları bilinir. Təbii ki, məktəbli forması vacibdir. Çünki bu, məktəblinin iş formasıdır. Necə ki, həkimlərin xüsusi geyimi olur, eyni zamanda, şagirdlərin də xüsusi forması olmalıdır".

*Günel CƏLİLOVA*

Məlum olduğu kimi, "Ümumi təhsil haqqında" qanun layihəsi hazırlanıb. Qanun layihəsində bir sıra məsələlər qeyd olunub, o cümlədən, orta məktəblərdə əlaçı şagirdlərə pul mükafatının verilməsi nəzərdə tutulur. Belə ki, qanun layihəsində göstərilib ki, ümumtəhsil müəssisəsi təhsildə nailiyyətləri ilə fərqlənən, eləcə də ölkə və beynəlxalq olimpiadaların qalibləri olan təhsilalanlar üçün ümumtəhsil müəssisəsinin öz vəsaiti hesabına məqsədli pul mükafatı təsis edə bilər.

# Orta məktəblərdə maraqlı və sual doğuran yenilik - əlaçıların mükafatlandırılmasına pul vəsaiti necə əldə ediləcək...



*"...orta məktəblər publik hüquqi şəxs qismində..."*

*Kamran Əsədov: "Pullu xidmət dedikdə dərsdənkənar rəsm, rəqs, hansısa bir idman növü üzrə bilik və bacarıqların şagirdlərə öyrədilməsi nəzərdə tutulur"*

Məktəbdə təhsil alan şagirdlər göstərdiyi yaxşı nəticəyə görə təhsil aldığı müəssisə tərəfindən pul mükafatı ilə təltif olunacaqlar. Maraqlı məqam ondan ibarətdir ki, mükafat heç bir dövlət qurumu, təşkilat deyil, məhz təhsil müəssisəsi tərəfindən ödəniləcək. Məktəbdə yaradılacaq pul fondu hansı mexanizm əsasında maliyyələşəcək?

**Mövzu ilə bağlı suallarımızı cavablandıran təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu gün ölkədə 4472 orta ümumtəhsil məktəbi var.** Onların hər biri büdcədən maliyyələşir. Məktəblərdə hər hansı bir tədbir icazə və xəbərdarlıqla keçirilir. Bu gün orta məktəblərin heç birinin muxtariyyəti yoxdur. Yeni qanun layihəsində orta məktəblərə həm idarəçilik, həm də maliyyə muxtariyyətinin verilməsi nəzərdə tutulur: "Belə olarsa, orta məktəblər publik hüquqi şəxs qismində fəaliyyət göstərərək gəlir əldə edəcəklər.

Məlumdur ki, ümumtəhsil məktəbində təhsil prosesi öyrədici, tərbiyədici və inkişafetdirici xarakter daşıyır. Bu prinsip həyata keçirilən zaman riayət olunmalı bir neçə vacib amil var. Orta məktəblər təhsilalanlarda fəal vətəndaş mövqeyi formalaşdırmaq, onları vətənpərvərlik və azərbaycançılıq ruhunda tərbiyə etmək, müstəqil həyata və əmək fəaliyyətinə hazırlamaq üçün müəyyən tədbirlər həyata keçirə bilərlər. Amma bu, təhsil xidmətlərindən kənar olmamalıdır.

Xatırladım ki, ümumtəhsil məktəbi qanunvericiliklə müəyyən edilmiş qaydada fiziki və hüquqi şəxslərə ödənişli müxtəlif təhsil xidmətləri göstərmək, fiziki və hüquqi şəxslərdən ianələr və könüllü yardımlar almaq hüququna malikdir. Bu mənbələrdən əldə olunan vəsait və digər əmlak dövlət təhsil müəssisəsinə büdcədən ayrılan vəsaitlərin miqdarına təsir göstərmir və onun nizamnaməsinə uyğun olaraq sərbəst istifadə edilir".

Həmsöhbətimiz onu da vurğuladı ki, 2011-ci ildə təsdiq edilmiş "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"nin tələblərinə görə, ümumtəhsil məktəbi qanunvericiliklə müəyyən edilmiş qaydada fiziki və hüquqi şəxslərə ödənişli müxtəlif təhsil xidmətləri göstərmək, fiziki və hüquqi şəxslərdən ianələr və könüllü yardımlar almaq hüququna malikdir. Bu mənbələrdən əldə olunan vəsait və digər əmlak dövlət təhsil müəssisəsinə büdcədən ayrılan vəsaitlərin miqdarına təsir göstərmir və onun nizamnaməsinə uyğun olaraq sərbəst istifadə edilir. Bununla bərabər orta məktəb öz maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün hüquqi və fiziki şəxslərin qanunvericiliyə uyğun verilən qrantlarını, vəsiyyət olunan vəsaitləri, ianələri və yardımları ala bilər: "Bu o deməkdir ki, qanunvericilik aktlarına görə məktəblərin maliyyə mənbəyi və gəliri açıq şəkildə göstərilib. Heç bir halda, məqsəd və məramından asılı olmayaraq, orta məktəblərdə satış yarmarkası, hansısa evdə bişirilmiş, hazırlanmış məhsulların pulla satılması yolverilməzdir. Məktəblər xeyriyyə, sosial kampaniyalara qoşula bilərlər. Amma bu kampaniyalar hansısa kommersiya məqsədi daşıya bilməz. Buna yol verən məktəb direktoru qanunvericiliyin tələblərini ciddi şəkildə pozur.

Çünki məktəb binaları daxilində satışa çıxarılan məhsulların sağlamlıq, gigiyenik qaydalara nə qədər uyğun olub-olmaması məlum deyil və bu, şagirdlərin sağlamlığı üçün təhlükəli ola bilər.

Pullu xidmət dedikdə dərsdənkənar rəsm, rəqs, hansısa bir idman növü üzrə bilik və bacarıqların şagirdlərə öyrədilməsi nəzərdə tutulur. Orta ümumtəhsil müəssisələri özlərini maliyyələşdirməlidirlər. Onlar təhsil xidməti göstərməlidirlər. Sadəcə, bu istiqamətdə qarşıya qoyulan vəzifəni təmin edəcək kadrlarımız yoxdur. Bu gün ölkə büdcəsindən ən çox vəsait ayrılan sahələrdən biri təhsil sahəsidir. Ancaq bununla bərabər təhsil müəssisələri özlərini təmin etməyi də bacarmalıdırlar. Məsələn, Sinqapurun iki universiteti hər il ölkə büdcəsinə 1 milyard dollara yaxın vəsait gətirir. Təəssüf ki, Azərbaycanda isə universitet və orta məktəblər dövlət büdcəsinə pul gətirmir. Yalnız mənimsəməklə məşğuldurlar. Ona görə də onlar dövlətin təhsil proqramında nəzərdə tutulmayan xidmətlər üzrə pullu xidmət göstərə bilərlər. Yeni əlavə xidmətlər ödənişli olacaq. Lakin problem kadr məsələsindədir. Bu istiqamətdə bacarıqlı, peşəkar kadrlar, direktorlarımız yoxdur. Ona görə də ilk növbədə lazımi qədər maliyyə biliyinə malik kadrları yetişdirməliyik. Düşünürəm ki, bu minvalla, Azərbaycandakı orta məktəblər bir neçə ildən sonra publik hüquqi şəxsə çevriləcək. Məktəblər məcbur olacaqlar ki, keyfiyyətli təhsil versinlər. Keyfiyyətli təhsil fonunda isə şagird gününün ikinci yarısında hazırlığa getməz. Dünyada qəbul edilən proses bundan ibarətdir. Bu mənada maliyyələşmə orta məktəblərə pis təsir göstərməyəcək. Əksinə, onların maliyyəsi artacaq və büdcədən asılılıqları aradan götürüləcək".

*Günel CƏLİLOVA*

# Gözlər yoldan yığılarmı...

## XATİRƏLƏR, DİLƏKLƏR...

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Xatirə Kitabı" Redaksiyası "Bakı-Xəbər" qəzeti ilə birgə layihə əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından yeni bioqrafik sənədli povestin çapına başlayır. Xatırladaq ki, bundan öncə yenə həmin birgə layihə çərçivəsində "Gözlə gələcəyəm" adlı kitab uğurla yekunlaşdırılaraq təqdim edilib. Son illərdə bütün təbiətinin ecazkar koloriti, insanlarının yüksək bəşəri keyfiyyətləri ilə mənə doğmalaşan İsmayıllıyadır yolum yenə. Bu dəfə bu yurdun itkin-şəhidinin axtarışına çıxmışam. Respublika "Xatirə Kitabı"nın redaksiyası və "Bakı-Xəbər" qəzetinin birgə layihəsi əsasında baş redaktor Nəzakət xanım Məmmədovanın bir qədər kövrək, bir qədər duyğusal təklifindən qaynaqlanır bu səfərim. Qarşıda məni və oxucuları hansı yaşantılar gözləyir?!.. Tələsməyin. Sizi bir Vətən övladının kitab-dəftərə sığmayacaq taleyinin bəzi epizodları ilə tanış edəcəyəm. İtkin-şəhid Xəqani Eyvaz oğlu Əkbərovla ilgili, onlu-onsuz tale yolu, axtarışları ilə...**

*(On beşinci yazı)*

Qəniyevlər ailəsi, Xəqaninin bibisi oğlanları - keçmiş döyüşçülərlə söhbətimiz zamanı səsləndirilən itkin-şəhidimizin haqqındakı uşaqlıq, gənclik illərilə ilgili xatirələr gerçək yaşantılardan qaynaqlanır, şübhəsiz. Bunlar Xəqaninin doğmalarının yanında, Vətənində olduğu vaxtlarda baş verənlərdir. Amma Xəqani əsirlikdədirsə, sağdırsa onun bədən üzvlərindən istifadə edərlər-filan, bunlar təbii ki, yalnız ehtimallardır. Hətta onun sağ ola bilməsi amilinə qədər...sinin uçuş zolağına daxil olmağa cəmisi 2 dəqiqə gecikibmiş... Deməli, bəzən 2 dəqiqə də insan həyatının xilasına kifayət edərmiş...zamanı yetişməyəndə... Fikir verirsinizmi kiminin tələsdirən, kimini gecikdirən olacaqlara?! Bunun adı AQİBƏT deyil, bəs nədi?!..

- Xaqani döyüşdən dönmədi o gün,

Köksündə güllələr alışdı köz-köz.

Bir eşqin ürəyi çatladı qəfil,

Bir ana dilində çiçəkləndi söz.

Xaqani döyüşdən dön-



Xəqaninin getdiyi yolsa...o yol Xəqaninin qisməti imiş. Qismətdən, qədərdən qaçmaq olurmu?! Rəsmən icazəli ola-ola, üstəlik nişanlı oğlanın Yeni ili doğma kəndində, ata evində, doğmalarının yanında, nişanlısının bir addımlığında qeyd etməkdən imtinası, sizcə onu hara tələsdirirdi belə?!.. Oonu tələsdirən qəzavü-qədər deyildimi?!.. Xəqani taleyini düşündüyünüz bu məqamlarda günümüzdə - bizdən çox-çox uzaqlarda baş verən daha bir qəzavü-qədər müqayisəsinə cəlb etmək istəyirəm sizləri. Özü də isti-isti... bu sətirləri yazdığım zamanda uzaq Efiopiya ölkəsinin paytaxtı Əddis-Əbəbə şəhərindən Nayrobiyə uçan təyyarənin qəzaya uğraması barədə dəhşətli xəbəri yayımlayırdı dünya mediası. Təyyarədə olan 157 nəfərin hamısı həlak olmuşdu. Bircə yunanıstanlı Antonios Mavropolilas adlı sərnişindən başqa. Bu sərnişinsə təyyarə rey-

mədi o gün,

Böyük hünərinin sorağı döndü.

Açdı qapısını ölümsüzlüyün,

Əlində şəhadət bayrağı döndü...

(Nəzakət Məmmədova. "Adsız qəhrəman" poemasından)

### Zaur: "Altı tanış uşaq idik, ikisi itkin düşdü"

Xəqanini sonuncu görən Qasımın mənə verdiyi məlumatları, Fərhadla Xəqaninin daha çox əsir düşmə ehtimalı barədə artıq sizlərin də bildiyiniz qənaətlərimizi qarşılıqlı şəkildə bölüşürük keçmiş döyüşçü qardaşlarla. Zaur buna oxşar hadisələrin onların da başına gəldiyini söyləyir:

- 1994-cü ilin yanvarında ən sonuncu bizim briqada yaradılmışdı. Yanvarın 24-də bizi apardılar döyüş bölgəsinə. Altı nəfər tanış uşaqlar idik. Onlardan biri Murovdağda qaldı. İtkin düşdü. Biri də bizim İsmayıllının Xənəyə kəndindən olan oğlan idi, o da itkin düşdü.

Simuzər bibi xatırlatma verir:

- Hə, bala, onun ata-anası bizə gəlmişdi, oğlanlarını Zaurdan soruşurdular.

Zaur:

- Dedilər ki, oğlumuz yoxdu. Dedim axı necə yəni yoxdu? Bu əsgərin adsoyadı Mirzəyev Ayaz idi. Bir yerdə döyüşmüşdük. Mən birinci yaralanıb hospitala götürülmüşəm. O zaman onu sağ-salamat görüb gəlmişdim. Ona görə də onun itkin düşməyi və ya şəhid olmasından məlumatsız idim. Elə gördüyüm - onu necə qoyub getmişdimsə, o şəkildə də cavab verdim valideynlərinə. Amma sonra mən poliklinikaya gedəndə döyüşçü yoldaşımız Elşənlə rastlaşdım. Elşəndən soruşdum bəs Ayaz necə oldu? O cavab verdi ki, Ayaz qarın boşluğundan yaralanmışdı, onun qarnını sarıdılar, qaldı şumun içində, çünki biz burdan hücuma keçməyə gedirdik. Ondan sonra geriyə qayıdanda o necə oldu, daha bilmədik. Bax, indi həmin adam da yoxdu. Nə biz tərəfə gəlib, nə də əsirlikdə olduğu barədə bir məlumat ala biliblər. Neçə il də şəhidlik statusunu vermirdilər ona. Axırda sənədləri topladılar, gətirdilər mən də imzaladım ki, bir yerdə olmuşuq, döyüşmüşük. Sonra məhkəmə sənədlər əsasında ona da şəhidlik statusu verdi. Amma Xəqani kimi ondan da bu günədək heç bir xəbər-ətər yoxdu ki, yoxdu. Xəqani də belə. Onu da döyüşçü yoldaşları qoyublar dedikləri yerdə, nə geriyə gəlib, nə də erməni məlumat verir ki ordadı, ya yox. İndi nə bilək?! Bəlkə elə mərmi onların durduğu yerə düşüb, orda da həlak olublar?.. Allah bilər doğrusunu.

- Mərmi düşüb onları öldürsəydi belə, yenə də heç olmazsa meyitləri və ya hər hansı əzalarısa da tapılardı axı. Lap tutalım, o vaxtdan həmin ərazilər ermənilərin nəzarəti altına düşüb, bizimkilər bir daha oralara ayaq basa bilməyiblər, amma ermənilər özləri də deyib ki, bizə lazımdı meyitləri benzinlə dəyişək, meyit nəyimizə lazımdı. Amma bu aspektdə də onlar haqqında heç bir bilgi yoxdu. Bax, görürsünüz,



*Bunun adı AQİBƏT deyil, bəs nədi?!..*

nə qədər müəmmalar var bu işdə?..

Ərşad:

- Mən yenə deyirəm, Xəqanini əsir tutub aparıblarsa, onun öldürülməyinə inanmıram. Çünki onun çox sağlam bədəni vardı. Onu ya işlədərlər, ya da orqanlarından istifadə edərlər. Dəfələrlə əsirlərin müxtəlif orqanlarına göz dikilməsi kimi məlumatları oxumuşuq. Belə insanlığa sığmayan əməlləri o qədərdir ki ermənilərin...Hətta bu niyyətlə əsiri saxlayan bir imkanlı erməninin qızının həmin azərbaycanlı əsirə vurulması və bu səbəbdən atasını çəkindirmək istəməsi, bu da baş tutmadıqda atasını öldürməsi kimi məlumatı da oxumuşuq mətbuatdan.

### "Qardaşlarının hamısından istiqanlı idi"

Bu ailədən Xəqaninin uşaqlığını, gəncliyini necə xatırladıqlarını soruşuram. Natiq dillənir:

- Məndən iki yaş böyük olsa da, uşaqlığımız bir yerdə keçib. Çox qüvvətli olduğundan, tez-tez yarızarafat-yarıgerçək deyirdi ki, bibioğlu, bax bu kənddə necə istəyirsən, gəz-dolan özünçün, heç kim sənə "gözün üstə qaşın var" deyə bilməz. Amma o qədər güclü, qüvvətli olmasına baxmayaraq, nahaqdan heç kimin xətrinə dəyməzdi. Bilmirəm, o da ürəyinin təmizliyindən idi, nədən idisə, ürəkdən şaqqanaq çəkib bərkdən gülməyi var idi. Uzaqdan eşidilirdi gülməyi.

Nişanlısı da mənimlə bir sinifdə oxumuşdu. Səkkiz il bir partada oturmuşduq. Təəssüf!.. Heyf Xəqanidən.



Simuzər bibi:

- Uşaqlığı da belə qalıb da, bala, yadımızda. Qızımla bir sinifdə oxuyurdu. Həmişə evimizə gəlib-gedib. Həm qardaşım oğlu kimi, həm uşaqların tay-tuşu kimi. Elə həmişə deyib-gülən, qəlbimizi görən Xaqan kimi qalıb yadımda. Bəlkə də qardaşlarının hamısından istiqanlısı o idi.

Natiq:

- Xəqani ilə sonuncu görüşümüz Sabunçudakı o vaxt pərakəndə şəkildə açılan "talkuçka" deyilən indiki yarmarkada olmuşdu. Bir o yadımdadır ki, cəbhəyə gedəcəyini demişdi.

### Ərşad: "Oxuduqlarım bir yana, elə gördüklərim kitab kimidir"

Burda diqqətli oxucularımla və qarşımdakı həmsöhbətlərimlə daha bir neçə nüansı bölüşmək məcburiyyətindəyəm. Qəribə və dəhşətlisi odur ki, Xəqanigil Bakıdan 18 nəfər birlikdə gediblər hərbi hissəyə. Bir yerdə yaşayıblar, birlikdə döyüşüblər, kəşfiyyatçılıq ediblər və sairə. Mən onun döyüş yoldaşları ilə görüşlərim zamanı öyrəndim ki, bu 18 nəfərdən 16-sı, yaralanmaqlarına, xəstələnməklərinə baxmayaraq, sağ-salamat qayıdıb gələ bilib öz evəyinə, ailələrinin yanına. Gəlməyən təkcə bu iki nəfərdi. Ona görə komandirləri Qasım da mənə dedi ki, Xaqanigilin bu şəkildə yoxa çıxmasının baiskarı onun yoldaşı Fərhadın dikbaşlığı, söz, əmr eşitmək istəməməsi olub... Onlarla olan üçüncü şəxs - ağdamlı oğlan haqqında da dəqiq məlumat yoxdur ki, onu tapıb o sonuncu gün baş verən prosesləri onunla da aydınlaşdıram, onun da dediklərini indiyədək eşidib-bildiklərimizlə tutuşduram. Yəni o da bu deyilənləri təsdiqləyib, üstəlik ən yaxın şahid kimi indi bizim bilmədiyimiz daha münasib məlumatlar verə bilərsə, deməli fakt ortalıqdadır ki, bunları yüz faiz tutub aparıblar. O zaman bu iki soydaşımız artıq ancaq Ermənistanda və ya Qarabağda yaşayan ermənilərin girovluğunda axtarılmalıdır... Ərşad mənim bu qənaətimi təsdiqləməklə yanaşı, cəbhədə və hospitalda şahidi olduğu bir sıra tükürpədici olaylardan da söz açaraq, bəzən hətta döyüşçülərin baş verənləri döyüşçü yoldaşlarından gizlətməyə belə məcbur olduqlarını söylədi:

- Bunları sizin yazdıqlarınızdan mən də oxudum.

*(Ardı səh.15-də )*

*(Əvvəli səh. 14-də)*

İndi sizə bir hadisəni də danışım. Mən hospitalda yatanda yer çatışmırdı. Balaca bir palata idi. Gətirib altıncı çarpayını qoymuşdular otağa ki, Samir adlı yaralı döyüşçünü də birtəhər burda yerləşdirsinlər. Bir gün bir gəlin xeylağı yanında balaca qız uşağı ilə gəldi. Gəlin soruşdu ki, burda Mehbalıyev Samir kimdi? Bu oğlan da Şamaxıdan idi. Biz iki qardaş, onlar da dayı-bacıoğlu bir palatada yatırdıq. Samir özünü təqdim edəndən sonra qadın qayıdıb dedi ki, bəs mənim yoldaşım sənin yanında, sənin rotanda döyüşüb. İndi onun haqqında heç bir məlumat ala bilmirik. Gördük o dəqiqə Samirin rəngi dəyişdi. Bu dəqiqəyə qədər biz, yəni Samirin palata yoldaşları həmin döyüşçünün başına nələr gəldiyi və ümumiyyətlə onun kimliyi barədə tamamilə məlumatsız idik. Əlqərəz, Samir özünü bir qədər toparlayıb qadını sakitləşdirirmiş sayaq tez-tələsik söylədi ki, ay bacı, mən yaralandım, o vaxta qədər sənin yoldaşın sağ-salamat idi, mən yaralanıb gələndən sonra orda nə baş verib, daha bilmirəm. Bu gəlin nə qədər çalışıb çək-çevir elədisə, Samir ancaq öz dediyinin üstündə durdu. Qadın nəhayət bir qədər də hədəli tonda ona bildirdi ki,"yoldaşımla bağlı nə baş veribsə mənə dəqiq de, onsuz da səndən əl çəkməyəcəm". Nə isə, axır ki, qadın çıxıb gedəndən sonra Samir başını əllərinin arasında tutub bərk-bərk sıxdı. Soruşduq niyə belə edirsən, nə baş verib?! Hətta həqiqəti öyrənənəcən bir qədər şübhələndik də ondan. Xeyli susduqdan sonra özünü ələ alıb danışmağa başladı. Dedi, axı mən ona necə deyəydim ki, sənin yoldaşın yaralandı, mən onu köməkləşib gizlətdim ot tayasının altında, tayanı da ermənilər qrantamyotla vurub yandırdılar, o da çığıra-çığıra tayanın içində yanıb kül oldu! Axı bunu mən necə deyim ona! Bunu eşitməkdənsə, qoy gedib ümidlə yaşasın. Bax, belə şeylər də olur da müharibədə. Gəlin çıxıb gedəndən sonra Samir iki gün o dəhşətli anı xatırladıqca fikirdən özünə gələ bilmirdi, diksinirdi yazıq yuxuda da.

Sonra başqa bir vəziyyəti sizə nəql edim. Deməli, Bakının Qobu kəndindən qonşu palatada Vahid adlı bir oğlan yatırdı. Anası da bu xəstəxanada süpürgəçi işləyirdi. Bir gün anası mənə dedi, niyə keçib mənim oğlumla söhbət eləmirsiz? Dedim deyin keçək də. Durdum getdim. Oğlan uzanmışdı. Birdən mələfəni ayaqlarının üstündən çəkdi, Baxdım ki, bunun iki ayağı da yoxdu. İnanırsız, vahimə basdı məni. 25 faiz qanla yaşayırdı o adam. İndi də yaşayır. Atası onu görməyə gəlmişdi. Allaha and olsun, kişi gedən kimi ürəyi partladı öldü. Səhərisi Qobudan xeyli adam - cavanlar yığışıb gəldilər mənim yanıma ki, komandir, biz deyə bilməyəcəyik atasının ölümünü, sən də bizimlə gəl. Dedim mən də deyə bilməyəcəm, ancaq gedək görək neyləyə bilirik. Biz qapıdan içəri girən kimi soruşdu bəs atam hanı? Dedilər gəlməyib. Qayıtdı ki, mənə yalan danışmayın, kişini basdırıb gəlmisiz, yuxuda hər şeyi görmüşəm. Hamı ağlaşdı orda.

- Bəs onun yaşaması - bu möcüzə necə baş verdi?

- Onu orada rəhmətlik şair Xəlil Rza gəlib görmüşdü. Onun xahişi ilə aparıb Türkiyədə müalicə etdirdilər Vahidi. Bir də bu insanın çox güclü əzələləri və ona ruh verən güclü yaşamaq həvəsi var idi. Dizdən yuxarı hər iki ayağı kəsilmiş vəziyyətdə başının üstündəki dəmirdən asılıb idman eləyirdi Vahid. Belə, əjdaha kimi bir oğlan idi. Deyirlər indi onun özünün də dörd oğlu var. Sözümün canı odur ki, bax, belə vəziyyətlərdə də sağ qalanlar var idi. Yəni demək istəyirəm tale, qismət məsələsidir bu...

Simuzər bibi:

- Allah hamıya toy, şadlıq qismət eləsin, bala. Bax, bu uşaqlarıma toy eləyəndə mənə bir ana kimi çıxış etməyə söz veriblər, çıxış eləyəndə ağlamışam. Niyə? Çünki həmişə belə günlərdə yadıma qardaşımın o nübar balası düşüb. Nübar idi də, bala. Evlənməmişdi, balaları yox idi. Nişanlı olmaq nə deməkdi? Nişanlı getməyi lap çox yandırır adamı. Qardaşıma bu dağı göstərdi, ancaq heç kimə Allah göstərməsin (yenə ağlayır), heç kimin balasına qıymasın. Şükür yenə Allahın məsləhətinə. Bəlkə ovunduracaq bizi?!..

Anasının kövrəldiyini görən Ərşad davam edir söhbətinə:

- Sizin insan... itkin fikirlərinizi də oxumuşam yazılarınızdan. Mənim ata babam da müharibədə itkin düşüb. Gedib komissarlıqdan sənədi almayana qədər inana bilmirdim onun itkinliyinə. Düşünürdüm, ay allah, insan necə itkin düşə bilər?! Hətta axtarıb kitablarda oxuyub insan itkinliyinin nə demək olduğunu aydınlaşdırmaq istəyirdim. İndi oxuduqlarım bir yana, elə gördüklərim kitab kimidir...

- Sizin babanızın da itkin düşdüyü deyilən İkinci Dünya müharibəsindəki itkinlərin içərisindən xaricə qaçıb-keçənlər olurmuş, qırıcı təyyarələr yaşayış binalarını, obyektləri bombalayanda yanıb kül olanlar olurmuş və sairə. Burda, xüsusilə Xəqaninin itkin düşdüyü şəraitdə belə hallar da baş verməyib axı...

Natiq:

- Düzdü. Siz bombardman döyüşlərindən danışırsız. Bizim Qarabağ müharibəsində tək-tük belə hallar olurdu. Düzü, bizləri də döyüş taktikasını bilməmiş döyüşlərə salırdılar. Bəzən heç bilmirdik ki, döyüş şəraitində hansı vəziyyətlərdə necə davranmaq lazımdı. Konkret bir faktı deyim. Təsəvvür edin ki, mən səngərdə düşmənlə üzbəüz durduğum zaman ümumiyyətlə müharibənin nə demək olduğunu dəqiq bilmirdim. Çıxıb blindajin döşündə (blindaj əsgərin döyüş mövqelərində səngər içində palçıqdan düzəldilmiş dincəlmək və qarşı tərəfi müşahidə yeri - N.Z.) tankların necə sıra ilə düzülüb getməyinə tamaşa edirdim. Birdən gədəbəyli Faiq adlı bir əsgər yoldaşım tutub qolumdan dartdı blindajın içinə ki, sən birbaşa hədəfə gəlirsən, səni çox rahatca vura bilərlər (eyni hal atəşkəsin mütəmadi olaraq pozulduğu 1996-97-ci illərdə AzTV-nin "hərbi proqramlar və salnamə" redaksiyasında işləyib cəbhə bölgəsinə çəkilişə gedərkən mənə də irad tutulmuşdu. Belə ki, Tərtərin Marquşevan (indiki adı Həsənqaya) kəndi istiqamətində səngərdən çəkiliş apararkən mən ağ plaşla çıxıb səngərin üstündə dayanmışdım. Bunu bizi müşayiət edən komandir mənə irad tutmuşdu ki, ermənilərlə aramız cəmisi 500 metr olar, ya olmaz, səni rahatca vura bilərlər - N.Z.). Elə onun məni aşağı çəkməsi ilə blindajı necə vurdularsa, torpağı göyə qalxdı. Azca geciksəydim, mən də orda torpağın altında qala bilərdim. Kim nə biləcəkdi? Deyəcəkdilər itkin düşdü də yəqin. Belə hallar da baş verə bilər müharibədə.



Simuzər bibi:

- Çoxları qaçsa da, mənim balalarım qaçmadılar. Mənim balalarım son günə qədər döyüşüblər. Lap axırıncı günlərində bax bu oğlum gəlib çıxdı (əli ilə Natiqi göstərir).

### Şahin: "Xəqanidən xəbər gətir, evimin açarları sənindi"

Söhbətimizin axarını yenə də Xəqaninin axtarışlarına, eləcə də Gəraybəyli kəndinin və özəlliklə Simuzər bibinin müharibə dövrü yaşantılarına yönəldirik.

Ərşad:

- Məhəlləmizə gələn bir nəfər xəbər yaymışdı ki, onun qardaşı bir əsiri Gürcüstandan keçməklə qaçırıb gətirə bilib.

- Hansı? Erməni idmançının köməkliyi ilə qaçıb gələni deyirsiniz?

- Yox, yox, o başqası olmuşdu. Onu bir nəfər Gürcüstan azərbaycanlısı xilas etmişdi. Deməli, Gürcüstanın Dmanisi rayonunun Yaqublu kəndi var. O kənd Ermənistana çox yaxındı. Ordan azərbaycanlı, erməni, gürcü, rus, milliyyətindən asılı olmayaraq, Gürcüstan vətəndaşlığı olan hər bir şəxs rahatca Ermənistana keçir. Bu yol vasitəsilə bu insanlar, eləcə də Ermənistan vətəndaşları hər iki tərəfə keçib gedə, alış-veriş eləyə bilirlər. Məhəlləyə gələn adamın orda - Dmanisidə yaşayan qardaşı da çox bacarıqlı, işgüzar bir adamdı. Qardaşından ona xəbər göndərdim ki, istəsə, bacarsa hətta məni də hər hansı vasitə ilə aparsın özü ilə Xəqanini axtaraq, ordadırsa, sağdırsa bir yolla xilas eləyib gətirək. Amma özü əvvəlcə bir maraqlansın. Ona şəklini də, ad-soyadından tutmuş haqqında olan bütün məlumatları da göndərdik.

Şahin dillənir:

- O adamla mən də görüşdüm. Dedi ki, xəbər gətirsəm nə verərsən. Dedim sən xəbər gətir, hamının şahidliyi ilə deyirəm, evimin açarları sənindi. Maraqlandı, gəldi dedi ki, heç nə öyrənə bilmədim. Amma bir məsələ də var ki, Gürcüstandan keçən o adamlar Ermənistan, İrəvan zonasında necə istəsələr gəzirlər, Qarabağ zonasınasa onları qətiyyən buraxmırlar. Xəqanini də, mən elə güman eləyirəm ki, Qarabağ tərəflərdə saxlayırlar (xatırladıram ki, Xəqaninin axtarılması zamanı Dağlıq Qarabağla bağlı iki biri digərinə zidd məqam da üzə çıxıb. Qinyaz müəllimə Şuşa həbsxanasından qaçan beyləqanlı Anar orada saxlanan 44 nəfər əsirin içərisində belə bir adama rast gəlmədiyini, keçmiş əsir Əhməd isə belə bir adamla Xankəndidə onlara yer qazdırarkən 10-15 dəqiqəlik də olsa görüşdüyünü söyləyib... - N.Z.).

Ərşad:

- Bir də, güman ki, onların çoxunu heç siyahıya salmayıblar, o cümlədən, artıq bildiyimiz kimi, Qırmızı Xaçın da siyahısına salmayıblar.

Zaur:

- Biz bəlkə də çox şeyi eşidə bilmirik, məlumat vermirlər. Amma ara-sıra elə məlumatlar üzə çıxır ki... Təsəvvür eləyin, o gün

- İndi bəlkə də müharibə söhbətləri arxa plana keçib. Amma atəşkəsin imzalanmasından sonra bir neçə il o ab-hava, eləcə də itkin düşənlərin axtarışı elə bil daha intensiv şəkildə davam etdirilirdi. İnsanlar da gündəlik həyatlarında, xeyirdə-şərdə bu mövzunu çox çözürdülər. O zamanlar bizim ailədə iki qardaşımın - Zaurla Natiqin toyunu bir yerdə eləmişik. Sizi inandırım ki, o toyun kasetinə baxanda elə bilirsən müharibə elə bizim Gəraybəylidə gedir. İnsanlar o dərəcədə bu hisslərə köklənmişdilər ki... Toyda xeyir-dua verənlər "Allah mübarək eləsin!" yerinə ancaq "Allah cavanlara dəyməsin!", "Allah dünyamızı salamat eləsin!" nidalarını dilə gətiriblər. Lent yazısına baxsanız görərsiniz ki, toya gələnlər ancaq müharibədən danışıblar. Ona görə də o zamanlar biz də əsirlər, əsirlikdən hər hansı vasitə ilə qurtulanlar, Qarabağ müharibəsinin gedişiatı zamanı baş verən hadisələr və s. barədə daha çox və mütəmadi məlumatlar alırdıq. İndi bu barədə məlumatlar çox azalıb.



Türkiyədə Xocalı soyqırımı ilə bağlı tədbir keçirilirdi. Bizim millət vəkili Qənirə xanım Paşayeva da orda idi. Bələdiyyə başqanı (sədr) çıxış eləyəndə dedi ki, erməni tərəfdə 8 min azərbaycanlı əsir var. Bəlkə də o bu sözü ümumiləşmiş formada deyir. Amma əsirlər orda olmasa, saxlanmasa deməz axı...

### "Allahdan diləmişdim: üç ağız it kimi hürdüm"

Ərşadın - bu sabiq döyüşçünün ürəyi doludu. Danışdırdıqca həm xatirələri bizimçün ipə-sapa düzüb çözələyir, həm də Qarabağ savaşının getdiyi dönəmlərdə ölkəmizdə yaranmış gerçək durumu analiz edir. Onun önə çəkdiyi - Gəraybəylinin xeyirşərində səslənən fikirlər əslində o dövr üçün bütün azərbaycanlıları bir araya gətirən dualar, diləklərdir. Bu ailə ilə söhbətimizə isə Simuzər bibinin ürəkləri dağlayacaq sözləri yekun vurdu. Əvvəlcə Ərşadı dinləyin:

Simuzər bibi:

- O günlərdə üzümü göylərə tutub o Böyük Allahdan dilədim ki, nəyimi istəyirsən məhv elə - varımı, yoxumu, dolanışığa gümanım gələn hər şeyimi - quru çörəyin üstünə duz səpib yeyərəm, bircə balalarımın əli əlimdə olsun. Kəndimizin aşağısında Pirməmməd piri var, o pirə gedib Allahdan dilək diləmişəm: Balalarıma məclis quraram. O məclisdə üç ağız it kimi hürərəm. Hürmüşəm də bala (Əsgər kişi deyir, toyda çəkilən lentin yaddaşına da düşüb arvadının diləyini yerinə yetirdiyi bu anlar... Ana istəyi, ana fəryadı, ananın övlad sevgisi ilə yaşantılarına fikir verin, lütfən! - N.Z.). O günümə də, bu günümə də şükür, bala. Bircə Xaqandan da xəbər gələydi, bütün doğmaları, anası sevinəydi, dünyadan nisgilli gedən qardaşımın da ruhu şad olaydı.

- Amin!

*(ardı var)*

***Nəzirməmməd ZÖHRABLI***

№ 57 (3955) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

2 APREL 2019-cu il

www.baki-xeber.com



## Ananın təhsilli olması övladının ömrünü uzada bilər

Almaniyada 3 mindən artıq qadın arasında tədqiqat aparılıb. Almaniya alimləri iddia edirlər ki, ananın təhsili uşağın ömrünün uzunluğuna təsir edir. Tədqiqatçılar araşdırmalar əsasında müəyyən ediblər ki, orta təhsilli anaların uşaqları ibtidai məktəbi qurtaran və ya tamamilə məktəbə getməmiş anaların uşaqları ilə müqayisədə 2 il daha çox yaşayır. Ananın təhsil səviyyəsi və onun uşağının həyatının uzunluğu arasında qarşılıqlı əlaqə Berlindəki Alman İqtisadi Tədqiqatlar İnstitutunda (DIW Berlin) araşdırma mövzusu olub. "Azərbaycan müəllimi"nə bildirir ki, 1950-ci illərdə Qərbi Almaniyada yaşamış 3300 qadın və onların övladları haqqında toplanmış informasiyaların təhlili göstərib ki, uşaqların həyatının orta uzunluğu analarının təhsil səviyyəsi nə qədər böyükdürsə, bir o qədər artır. Alimlər bunu onunla izah edirlər ki, təhsilli ailədə böyümüş uşaq daha çox sağlam həyat tərzi sürür, düzgün qidalanır və nadir hallarda zərərli vərdişlərə malikdir. Bundan başqa, təhsilli analar uşaqlarına daha yüksək həyat səviyyəsi təmin edə bilərlər, çünki adətən, bu cür analar öz uşaqlarının bütün ehtiyaclarını təmin edə bilmək üçün daha yüksək maaşlı işə malikdirlər. Qeyd edilməlidir ki, mütəxəssislər iddia edirlər ki, ananın təhsil səviyyəsi və uşağın həyatının uzunluğu arasında əlaqə hətta bir neçə nəsil sonra da gözə çarpır. Əlavə edək ki, alimlər tədqiqatın ikinci hissəsini qadının təhsil səviyyəsi və onun uşağının psixi sağlamlığı arasında qarşılıqlı əlaqənin öyrənilməsinə həsr ediblər. Ancaq alman mütəxəssisləri burada hər hansı möhkəm əlaqə aşkar edə bilməyiblər.

# Eynşteynin Hitlerlə bağlı məktubu 134 min dollara satıldı

**Məşhur fizik Albert Eynşteynin Adolf Hitler haqqında yazdığı məktub 134 min dollara satılıb.**



"Kult.az" xəbər verir ki, Hitlerin dəliliyindən və Almaniyadakı çətin yaşayış şəraitindən bəhs edilən məktub Los- Ancelsdə 23 təklifdən sonra sözügedən qiymətə alıcı tapıb. Bununla yanaşı, həmin hərracda Eynşteynin 1921-1939-cu illər arasında yazdığı bildirilən daha iki əlyazma məktubu da satılıb. Məktubların birində Eynşteyn onkoloq Marisa Lensə 2-ci Dünya müharibəsində yəhudilərə göstərdiyi köməyə görə təşəkkür edib. İkinci məktubda isə A.Eynşteyn alim Maya Vinterin bacısına Münhenə təcili getməsinin lazım olduğunu, lakin təhlükəli səbəblərə görə bunu edə bilməyəcəyini bildirir.

## "Azercell" ilə ən sərfəli Rominq İnternet paketlərindən faydalanın!

*"Azercell"dən yeni Günlük Rominq İnternet paketi cəmi 3,90 AZN-ə!*

**"Azercell" ölkə xaricində olan abunəçilərinin ən sərfəli rominq xidmətlərindən faydalanmaları üçün yeni Günlük Rominq İnternet paketini təklif edir.**

29 mart tarixindən etibarən "Azercell" abunəçiləri 100 MB həcmində təqdim olunan Günlük Rominq İnternet paketindən cəmi 3,90 AZN ödəməklə yararlana bilər. "Azercell"in Rominq İnternet paketləri abunəçilərə səfər və səyahətlər zamanı yarana biləcək gözlənilməz internet xərclərinin qarşısını almaqda yardımçı olur.

Qeyd edək ki, "Azercell" abunəçilərinə rominqdə internet xidmətindən faydalanmaq üçün daha 2 paket təklif edir: 19.90 AZN dəyərində 1 GB və 9.90 AZN dəyərində 400 MB həcmində internet paketləri. Bu paketlər dünyanın ən çox ziyarət edilən 52 ölkəsində fəaliyyət göstərən 70-dən çox operatorun şəbəkəsində qüvvədədir və siyahı daim yenilənir. Əlavə olaraq, Türkiyə, Gürcüstan, ABŞ, Qətər, Belarus, Finlandiya, Özbəkistan, Yeni Zelandiya, BƏƏ və Çin kimi populyar istiqamətlərdə rominq internet paketləri bütün şəbəkələrdə etibarlı olduğundan, "Azercell" abunəçiləri prioritet operatoru seçmək zərurətinə ehtiyac qalmadan istənilən şəbəkədə internet xidmətindən yararlana bilər.

"Azercell" ilə rominqdə onlayn olmaq fürsətini qaçırmayın!

"Azercell"in Rominq İnternet paketləri haqqında daha ətraflı məlumat üçün aşağıdakı keçidə daxil olun: https://www.azercell.com/az/personal/roaming/internet-roaming/

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Pul gətirən möcüzəli daş

Hər bir qiymətli daşın insanlara özünəməxsus təsir gücü vardır. Bəzi daşların müalicəvi təsirə malik olduğunu hamımız bilirik. Sizlərə bəhs etmək istədiyim daş növü isə qədim əfsanələrə görə pul daşı adlandırılır. "İmmunitet.az" bildirir ki, deyimlərə əsasən bu daşdan hansı evdə varsa, həmin evə pul gəlir. Bu daş əqiq daşıdır. Qədim zamanlarda əqiq daşını tacirlər, bəylər öz evlərindən əskik etməzlərmiş. Hətta, onlar öz xanımlarına bu daşlardan hədiyyə edərlərmiş ki, xanımları bu daşı daima üzərlərində gəzdirsinlər və daş itməsin. Deyilənlərə görə, bu daşdan hansı evdə varsa, həmin evə ruzi-bərəkət və pul gəlir. Əqiq daşı həm də həmin evi bəd nəzərdən və pis enerjidən qoruyur. Bu deyilənlər yüz illər boyu öz təsdiqini tapdığına görə, indi də bəzi insanlar evlərində əqiq daşı saxlayırlar. Deyilənə görə, Hz.Məhəmməd peyğəmbərimizin üzüyünün qaşı da əqiqdən olub. Əqiq daşı qiymətli olduğuna görə onun haqqında bir çox deyimlər var. Məsələn, türkdilli xalqların bir atalar sözündə "Əqiq yoxsulluğu aradan qaldırar, qanaxmanı durdurar". Əqiq daşı cibində gəzdirilməsi mümkün olan bir daşdır. Siz də cibinizdə bu daşdan gəzdirsəniz və onun var-dövlət gətirəcəyinə inansanız, dövlətli olacaqsınız.

## Elan

Şəmkir rayonu, Bayramlı kəndində yerləşən, Kazımova Zərqələm Paşa qızına məxsus torpaq sahəsinin çıxarışı itdiyindən etibarsız sayılır.

---

İbrahimov Elqar Əhəd oğlunun adına, Bakı şəhəri, Əcəmi Naxçıvanski küçəsi, ev 6, mənzil 57 ünvanının qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

---

Duniyev Sultan Əbülfəz oğluna məxsus, Bakı şəhəri, Binəqədi rayonu, Mir Cəlal küçəsi, ev 72 a, mənzil 40 ünvanına verilmiş qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.





**Qoç** - İşləriniz çoxdur və bunların hər biri özlüyündə maraqlıdır. Çox məşğul olsanız da, yorğunluq hiss etməyəcəksiniz. Eksperiment etmək, qeyri-standart metodlardan yararlanmaq olar.



**Buğa** - Özünüzü yaxşı tərəfdən göstərə bilərsiniz. Mərhəmətiniz və alicənablığınız diqqətdən kənarda qalmayacaq. Bəziləri sizin hərəkətlərinizlə qürur duyur, bəziləri isə bundan öz xeyirlərinə istifadə edərək sizi idarə etməyə çalışırlar.



**Əkizlər** - Ağlınızı işlədin, üzdə olan həllər heç də ən yaxşıları deyil, bir az dərin düşünün. İstedadlarınızı nümayiş etdirmək üçün əla gündür: çox güman ki, həyatınızı dəyişdirə biləcək insanlar həmin qabiliyyətlərinizi görüb qiymətləndirəcəklər.



**Xərçəng** - Bir çox Xərçənglər bu gün qeyri-adi qərarlar verəcək, həyatlarını müəyyən qədər dəyişəcəklər. Yeni zirvələr fəth etməkdə onlara mane olan əlaqələri qırıb, vərdişləri tərgitməkdə bu gün qərarlısınız.



**Şir** - Sağlam düşüncə və məntiqin sayəsində yeni problemlər yaratmadan köhnələri həll edə bilirsiniz. Danışıqlar bir qədər uzana bilər, ancaq nəticəsi məhz siz istəyən kimi olacaq.



**Qız** - Sizin qətiyyətiniz heyrət doğurur. Məhz onun sayəsində başqalarının uduzduğu yerdə siz qələbə qazanırsınız. Hər zaman tərəfdaş tapmaq olmur, ancaq siz elə təkbaşına da əla nəticələr qazanırsınız.



**Tərəzi** - Gərginlik artır: xeyli yeni tapşırıq alırsınız, üstəlik, rutin problemlərin həlli də xeyli vaxtınızı alır. Bir çox Tərəzilərin onlar üçün gerçəkdən də maraqlı olan işlərə sadəcə vaxtları qalmayacaq.



**Əqrəb** - Gücünüzün, yaxud enerjinizin azlığından şikayət etməyəcəksiniz. İstənilən məsəleni istənilən məsələnin öhdəsindən gələ bilərsiniz. Planlaşdırın: bir çox şey məqsədləri nə dərəcədə düzgün təyin etməyinizdən asılıdır.



**Oxatan** - İstənilən müştərək iş üçün uğurlu gündür. Nüfuzlu şəxslərin dəstəyini qazanmağa çalışın - bu, qarşınıza qoyduğunuz məqsədlərə çatmaqda çox köməyiniz olar. Ənənələri pozmaq, eksperimentlər aparmaq məsləhət deyil.



**Oğlaq** - Şəxsi xarakterli problemlər önə çıxır, iş məsələləri isə arxa plana keçir. Vəzifələrinizi yerinə yetirməyə həvəsiniz yoxdur, bu səbəbdən də gərək nəticədən şikayətlənməyəsiniz.



**Dolça** - Daha vacib hadisələr şəxsi həyatınızda baş verir və ilk növbədə onlara diqqət yetirin. Məsləhətləri dinləyin, xüsusilə əgər bunları qadınlar verirlərsə: çox faydalı sözlər eşidəcəyinizdən əmin olun.



**Balıqlar** - Qohumlarınızla münasibətlərinizə diqqət edin, yaxınlarınızın qayğısına qalın. Şəxsi və ailə məsələləri bu gün birinci yerdədir. Bəzi Balıqlar özlərini tamamilə ev işlərinə həsr edəcək, iş yeri və əyləncə barədə unudacaqlar.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*



## Dünyanın ən hündür yaşayış binası Nyu-Yorkda tikiləcək

**Oktyabrın 15-də Nyu-York şəhərində "Extell Development Company" dünyanın ən yüksək yaşayış binasının inşasına başlayıb.**

"Milli.Az" bildirir ki, "West 57th Street"də yerləşən "Central Park Tower" adlı binanın hündürlüyü 472 metr olacaq. Layihənin müəllifi "Adrian Smith + Gordon Gill Architecture (AS + GG)" bürosudur.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 5200*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.